RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 221 (8244) BAZAR, 6 oktyabr 2019-cu il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az





# Diplomat məharəti

## İLHAM ƏLİYEV Ermənistanın işğalçı-terrorçu dövlət siyasətinə növbəti əsaslı zərbə vurdu və Vladimir Putinin timsalında Rusiyanın tam siyasi dəstəyini qazandı

“Ermənistan baş nazirinin təəccüb doğuran bəyanatına toxunmaq istərdim. Bu bəyanat təkcə Azərbaycanda təəccüblə qarşılanmayıb, ona Rusiya Federasiyası tərəfindən də “Valday” forumu çərçivəsində müvafiq cavab verilib. Beləliklə, bəyanat sözbəsöz belədir: “Qarabağ Ermənistanın bir hissəsidir və nöqtə”. Birincisi, yumşaq desək, bu, yalandır. Dünya tərəfindən həm Aran, həm də Dağlıq Qarabağ Azərbaycanın ayrılmaz hissəsi kimi tanınıb. Ermənistan özü də bu qanunsuz qurumu tanımır. Qarabağ tarixi, əzəli Azərbaycan torpağıdır. Beləliklə, Qarabağ Azərbaycandır və nida işarəsi”.

İstənilən beynəlxalq toplantıların ali tribunalarından Azərbaycanın haqq səsini dünyaya bəyan edən, əsl həqiqətləri faktlarla, sübutlarla ortaya qoyan Prezident İlham Əliyev Soçi səfəri zamanı da prinsipial siyasətinə sadiq qalaraq bir daha işğalçı Ermənistana çox ciddi mesaj ünvanladı. Həmçinin bu ölkənin baş naziri Nikol Paşinyanın Xankəndidə səsləndirdiyi cəfəng, məsuliyyətsiz bəyanatının üstündən xətt çəkdi.

### Yeni dünya gündəmini müəyyənləşdirən platforma

Prezdent İlham Əliyevin Rusiya Federasiyasının rəhbəri Vladimir Putinin dəvəti ilə Soçiyə səfəri, “Valday” Beynəlxalq Diskussiya Klubunun XVI illik iclasında iştirakı strateji əhəmiyyət daşıyan çox səmərəli və məhsuldar görüşlərlə yadda qaldı.

Azərbaycan Prezidenti “Valday” klubunun fəaliyyətini yüksək qiymətləndirərək onu dünyanın ən mühüm məsələlərinin müzakirə olunduğu və əməkdaşlığın dərinləşməsi üçün tövsiyələr verilən mühüm beynəlxalq platforma kimi dəyərləndirdi. Həqiqətən də bu klub dünya siyasətinə yeni rakursdan baxmağa imkan yaradan intellektual mərkəzlərdən biridir. Ona görə də dövlət başçımızın Soçi səfərini Azərbaycanın beynəlxalq münasibətlərinin gələcək uğurları baxımından yüksək qiymətləndirmək olar.

2004-cü ildə yaradılan “Valday” Beynəlxalq Diskussiya Klubunun ilk konfransı Rusiyanın Velikiy Novqorod şəhərində, Valday gölünün sahilində keçirilib. Klub adını da elə buradan götürüb. Ötən illər ərzində dünyanın aparıcı ekspertlərinin görüş yerinə çevrilən klub tədqiqatlarında qlobal siyasət və iqtisadi proseslərin araşdırılmasına xüsusi yer verir. İndiyədək klubun işində 74 ölkədən dünya elmi birliyini təmsil edən 1000-dən çox nümayəndə, həmçinin dövlət və hökumət başçıları iştirak edib. Onu da bildirək ki, digər ölkələrin rəhbərləri bu tədbirlərə məhdud sayda dəvət olunurlar.

Oktyabrın 3-də klubun “Şərq şəfəqləri və dünya siyasi quruluşu” mövzusuna həsr olunmuş XVI illik iclasında dünyanın 40 ölkəsindən 150-dən çox nümayəndə iştirak edib. İclasda beynəlxalq təhlükəsizlik, dünya iqtisadiyyatı, regional sabitlik, iqlim dəyişiklikləri və digər aktual mövzularda fikir mübadiləsi aparılıb. Görüşün başlıca mövzularından biri beynəlxalq təhlükəsizlik olub.

Prezident İlham Əliyevin bu iclasa dəvət olunması, əlbəttə ki, ilk növbədə həyata keçirdiyi müstəqil siyasətin dünyanın güc mərkəzləri və böyük ölkələri tərəfindən hörmətlə qarşılanması və qəbul edilməsinin, eləcə də Azərbaycanın yüksək nüfuzunun göstəricisidir. Cənab İlham Əliyev digər beynəlxalq konfranslarda, forumlarda olduğu kimi, bu iclasda da çıxış edərək Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı dəyişməz prinsipial mövqeyini bir daha dünyaya bəyan etdi və ölkəmizin sosial-iqtisadi uğurları, beynəlxalq layihələrdə iştirakı ilə bağlı ətraflı məlumat verdi.

Ardı 2-ci səh.

# Vətəndaş rifahı, insan amili

## Prezident İlham Əliyevin ikinci sosial paketi ümumilikdə 750 mindən çox şəxsin pensiyasının artmasını təmin edib



Sosial-iqtisadi sahədə ardıcıl şəkildə islahatlar aparan dövlətlər sırasında adı çəkilən Azərbaycanın iqtisadi uğurları sosial sahədə inqilabi islahatların gerçəkləşməsini şərtləndirib.

Prezident İlham Əliyevin siyasətinin ana xəttinin sosialyönümlü olması həm ötən, həm də bu il həyata keçirilən islahatlarda bir daha özünü göstərib. 2015-ci ildən reallaşdırılan islahatlar kursu artıq bütün sahələrdə, o cümlədən sosial sahədə uğurlu nəticələrini verir. Ölkəmizdə sosial sahədə həyata keçirilən islahatlara nəzər yetirsək, aydın olar ki, ilin əvvəlində aparılan islahatlar daha çox pensiya, müavinət və təqaüdlərin artımına yönəldilib və 4,2 milyon nəfəri əhatə edib. Ümumilikdə isə iki sosial paketin birlikdə əhatə dairəsi əhalinin 40 faizini təşkil edir.

Ardı 4-cü səh.

## Birinci vitse-prezident Mehriban ƏLİYEVA: “Müəllimlik olduqca hörmətli peşədir”




Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva 5 Oktyabr - Beynəlxalq Müəllimlər Günü ilə əlaqədar “Instagram” səhifəsində Azərbaycan müəllimlərini təbrik edib. Təbrikdə deyilir:

“Əziz müəllimlərimiz, sizi Beynəlxalq Müəllimlər Günü münasibətilə ürəkdən təbrik edirəm. Müəllimlik olduqca hörmətli peşədir. Gənc nəslin yetişməsi məhz sizdən, sizin yüksək peşəkarlığınızdan asılıdır. Əlbəttə, hər kəs öz məktəb və tələbəlik illərini, gözəl müəllimlərini xüsusi minnətdarlıq hissi ilə xatırlayır. Sizin müdrikliyinizin və səbrinizin layiqli qiymətini yalnız illər keçdikcə vermək mümkündür. Uşaqlara və gənclərə göstərdiyiniz sevgiyə və məsuliyyətli işinizə görə sizə təşəkkür edirəm.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, əmin-amanlıq və uğurlar arzulayıram”.

## “Qarabağ Azərbaycandır və nida işarəsi”

*Prezident İlham ƏLİYEV*



# YAŞA SƏNİ!

Cənab Ali Baş Komandan, bu, tarixi kəlam oldu,
Şəhidlərin məzarına şanlı bir ehtiram oldu.
Azərbaycan nəfəs aldı, ürək bir az aram oldu,
Ulu Tanrım çox görməsin bu torpağa, daşa səni.

Kürsü - açıq səngəriydi, fəqət “nida işarəsi!”
Düz hədəfə gedib dəyən sonuncu bur top gülləsi.
Qulağımda Xan əminin bir Qarabağ zəngulәsi,
Eşidirdi sən gəzdiyin Cıdır düzü, Şuşa səni!

Vətənimin şərəfini qoruyursan, qoru belə,
Vətən deyir: Vətən oğlu, düz belədir, doğru belə.
Canımızdan belə çıxır, çəkdiyimiz ağrı belə,
Yaşa sevən ürəklərdə, bu ürəklə yaşa səni.

Qoy ədalət zəfər çalsın, xeyir çıxsın qabağına,
Yaşlı yollar yolçususan, daş dəyməsin ayağına.
Biz and içdik bizim qalib Azərbaycan bayrağına,
Ucaltdığın bayraq kimi uca görək, uca səni.

Qanımızda, canımızda bir istiqlal nəğməsi var,
Qaçqınların, köçkünlərin fəryadı var, naləsi var.
Qarabağda düşmənlərin min qəsdi var, qərəzi var,
Mən tapşırdım bu tarixdə tarixi yaddaşa səni.

Yurdumuzu yağmalayan qaniçəndi, həramidi,
Nərə çəkib, qılınc çalmaq qəhrəmanlıq məramıdı.
Oğulların hünər yolu - Ataların davamıdı,
Zaman özü alqışlayır, mərd atanla qoşa səni.

*Nəriman HƏSƏNZADƏ,*
*Xalq şairi*

# Ermənistanda əhali 17 faiz azalıb



Ağır sosial-iqtisadi vəziyyət fonunda işğalçı Ermənistanda miqrasiya probleminin daha da dərinləşməsi müşahidə olunur. Hadisələrin real inkişaf axarı göstərir ki, bu gedişlə miqrasiya Ermənistanda əsl demoqrafik fəlakət yaradacaq. Hakimiyyətin bu məsələnin həlli istiqamətində atdığı addımlar isə faktiki olaraq iflasa uğrayıb.

Yerli mediada bildirilir ki, ölkə rəhbərliyi indiyədək miqrasiya prosesini dayandıra, qarşısını ala bilməyib. Qeyd olunur ki, bu gedişlə Ermənistanda əhalinin kütləvi şəkildə köç etməsinin, xarici ölkələrə axınının qarşısını almaq qətiyyən mümkün olmayacaq. Reallıq isə budur ki, 1991-ci ildən 2019-cu ilə qədər Ermənistanda yaşayan ermənilər arasında 17 faiz azalma müşahidə edilib. Ermənistan Milli Statistika Xidmətinin Demoqrafiya və Statistika şöbəsinin müdiri Karina Kyumcyan deyib ki, 1991-ci ildə 3,5 milyon nəfər əhalisi olan Ermənistanda bu ilin əvvəlində aparılan siyahıyaalma nəticəsində 2 milyon 965 min nəfərin qeydiyyatda olduğu məlum olub.

Ardı 6-cı səh.



# Diplomat məharəti

## İLHAM ƏLİYEV Ermənistanın işğalçı-terrorçu dövlət siyasətinə növbəti əsaslı zərbə vurdu və Vladimir Putinin timsalında Rusiyanın tam siyasi dəstəyini qazandı

*Əvvəli 1-ci səh.*

### Rusiyadan Paşinyana növbəti Azərbaycan xəbərdarlığı

Azərbaycan Prezidentinin iclasdakı çıxışı həm ölkəmizdə, həm də Ermənistanda geniş müzakirə mövzusuna çevrilib. Çünki illərdir sülh danışıqlarının baş tutmaması üçün müxtəlif bəhanələr gətirən Ermənistan rəhbərliyinin qeyri-konstruktiv mövqeyini və işğalçı siyasətini ifşa edən cənab İlham Əliyev bu dəfə də qətiyyətli mövqe ortaya qoydu.

Xatırladaq ki, bu ölkənin baş naziri N.Paşinyan avqustun 5-də Xankəndinin mərkəzi meydanındakı mitinqdə çıxış edərək Yerevanın Dağlıq Qarabağa dair danışıqlarda yürütdüyü diplomatiyanın yekun məqsədi "miatsum"dur (birləşmək) demişdi. Eyni zamanda "Qarabağ Ermənistanındır və nöqtə" sərsəm fikrini söyləməklə siyasi savadsızlığını, həmçinin əsl niyyətinin danışıqlar vasitəsilə münaqişənin həlli deyil, Azərbaycan ərazilərinin qanunsuz işğalının davam etdirilməsi olduğunu nümayiş etdirmişdi.

N.Paşinyanın bu fikrinə Prezident İlham Əliyevdən öncə Rusiyanın Xarici İşlər naziri Sergey Lavrov "Valday" Beynəlxalq Diskussiya Klubunun XVI illik iclasında sərt münasibət bildirmişdi. S.Lavrovun fikrincə, Qarabağın Ermənistanın olması barədə bəyanatlar siyasi prosesin tənzimlənməsinə kömək etmir: "ATƏT-in Minsk qrupunun həmsədrləri sıx dostluq şəraitində çalışırlar. Onlar bu il üç dəfə xarici işlər nazirləri ilə görüşüblər, o cümlədən bu ilin aprelində mənim iştirakımla Azərbaycanın və Ermənistanın xarici işlər nazirləri ilə görüş keçirilib. İndi vəziyyət bir il əvvəlkindən sakitdir. Lakin siyasi proses yavaşıyıb və hələlik bu ləngiməni aradan qaldıra bilmirik. Tərəflər yetərincə ciddi bəyanatlar, o cümlədən Qarabağın Ermənistanın olması barədə bəyanatlar verirlər. Şübhəsiz ki, belə bəyanatlar siyasi prosesin tənzimlənməsinə kömək etmir".

### Etnik təmizləmə və 25 ildir kağız üzərində qalan qətnamələr...

Əlbəttə ki, N.Paşinyanın Azərbaycanın işğal olunmuş ərazilərini Ermənistan adlandırması, ölkəsi ilə qondarma rejimin birləşdirilməsinə çağırış etməsi Ermənistanın əsl məqsədinin işğalçılıq olduğunun növbəti açıq ifşasıdır.

Azərbaycan Prezidenti hər zaman olduğu kimi, Soçidə də işğalçının əsl xislətini açıb göstərdi: "Dağlıq Qarabağ əzəli Azərbaycan torpağıdır. Sovet dövründə Dağlıq Qarabağ Muxtar Vilayəti yaradılmışdı. Qeyd etməliyəm ki, bu münaqişə ilə əlaqədar çox vaxt reallığı əks etdirməyən geniş fikir müxtəlifliyi var. Bu məsələyə aydınlıq gətirmək üçün deməliyəm ki, 1921-ci ildə Qafqaz bürosunun qərarında Dağlıq Qarabağın çox vaxt erməni tərəfinin interpretasiya etdiyi kimi, Azərbaycana verilməsi deyil, onun Azərbaycanın tərkibində qalması göstərilmişdir. Münaqişə başlayana qədər Azərbaycan SSR-in Dağlıq Qarabağ Muxtar Vilayətində yaşayan azərbaycanlı və erməni əhalinin say nisbəti 25:75 faiz kimi olub. Münaqişə nəticəsində Dağlıq Qarabağdan, həmçinin digər 7 rayondan bütün azərbaycanlı əhali qovulub, başqa sözlə desək, orada etnik təmizləmə aparılıb. Bu gün də işğal olunmuş ərazilərdə azərbaycanlı əhali yoxdur və işğal olunmuş ərazilər, onların böyük bir hissəsi yandırılmış, dağıdılmış torpaqlar, viran qoyulmuş evlər, məktəblər, ictimai binalardır. Münaqişə nəticəsində Azərbaycan humanitar fəlakətlə üzləşib. Dağlıq Qarabağdan və Azərbaycanın işğal olunmuş digər ərazilərindən olan 700 mindən çox məcburi köçkün, üstəgəl müasir Ermənistanın ərazisindəki öz tarixi torpaqlarından qovulmuş 250 min azərbaycanlı".

BMT Təhlükəsizlik Şurasının erməni silahlı qüvvələrinin işğal olunmuş ərazilərdən dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb edən dörd qətnamə qəbul etdiyini, lakin 25 ildən çoxdur ki, bu qətnamələrin yerinə yetirilmədiyini vurğulayan Prezident qəbul olunmuş qərarların icrasızlığını əsaslandırıb: "BMT Təhlükəsizlik Şurası ali beynəlxalq orqandır. Əgər 25 ildən çox müddətdə Təhlükəsizlik Şurasının qəbul etdiyi qərarlar yerinə yetirilmirsə, onda bu, həmin təşkilatın səmərəliliyi ilə bağlı bir çox suallar doğurur. Azərbaycanda bizi qətnamələrin yerinə yetirilməsinin reallaşdırılmasının seçmə xarakteri narahat edir. Bəzən onlar bir neçə gün ərzində yerinə yetirilir, bəzən isə müəyyən hərbi əməliyyatların həyata keçirilməsində onlara, ümumiyyətlə, ehtiyac qalmır. Bizimlə bağlı məsələdə isə qətnamələr kağız üzərində qalır. Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi Azərbaycanın ərazi bütövlüyü çərçivəsində, BMT-nin bütün dünya tərəfindən qəbul edilmiş Nizamnaməsi, BMT Təhlükəsizlik Şurasının qətnamələri və Helsinki Yekun Aktı çərçivəsində həll olunmalıdır".

### İlham Əliyev Paşinyanı bir daha ifşa etdi

Digər bir tərəfdən Ermənistanın baş naziri münaqişə ilə bağlı fikir səsləndirərkən tez-tez xatırladığı bir sərsəm cümlə də diqqətlərdən yayınmır. N.Paşinyan deyir ki, münaqişənin həlli "Azərbaycan xalqı", "Ermənistan xalqı" və "Dağlıq Qarabağ xalqı" üçün məqbul olmalıdır.

Prezident İlham Əliyev baş nazirin bu yalanını da ifşa edərək vurğulayıb ki, "Dağlıq Qarabağ xalqı" məfhumu mövcud deyil: "Dağlıq Qarabağın əhalisi var, münaqişə başlayana qədər bu, bərabər hüquqlara malik olan Azərbaycan və erməni əhalisindən ibarət idi. Azərbaycan üçün hansı həll variantının məqbul olmasına gəldikdə isə, o, Azərbaycanın bütün dünya tərəfindən tanınmış ərazi bütövlüyünün bərpa olunması, qaçqınların və məcburi köçkünlərin öz doğma torpaqlarına, o cümlədən Dağlıq Qarabağa qayıtmasından ibarətdir. Bu, Təhlükəsizlik Şurasının qətnamələrinə və Helsinki Yekun Aktına uyğundur".

Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzünün bu gün də davam etdiyini söyləyən Prezident oktyabrın 2-də erməni snayperi tərəfindən Qazax rayonunda dinc sakinin, həmçinin 2016-cı ilin aprelində hərbi təxribat zamanı altı dinc sakinin, o cümlədən balaca Zəhranın qətlə yetirildiyini də diqqətə çatdırıb.

Bu fikirləri ilə dövlət başçısı bir daha dünyaya nümayiş etdirdi ki, Ermənistan Azərbaycan torpaqlarını işğalda saxlamaqla yanaşı dinc sakinlərə, xüsusən də günahsız körpələrə qarşı qanlı terrorunu davam etdirir.

Çıxışının sonunda Paşinyanın "Qarabağ Ermənistanındır və nöqtə" sərsəm ifadəsinə cavab olaraq "Qarabağ Azərbaycanın tarixi və əzəli torpağıdır və nida" deməsi ilə cənab İlham Əliyev Paşinyanı bir daha ifşa etmiş oldu. Dövlət başçısı Ermənistan baş nazirinin sözlərinin doğrudan da yalan olduğunu əsaslandırdı.

Burada digər maraqlı məqam odur ki, Ermənistanın baş naziri yalan bəyanatını Xankəndidə bir qrup tərəfdarı qarşısında səsləndirmişdisə, Azərbaycan Prezidenti əsl həqiqəti beynəlxalq tədbirdə - "Valday" Belynəlxalq Diskussiya Klubunun XVI illik iclasının plenar sessiyasında səsləndirdi.

Azərbaycan Prezidenti Ermənistanın işğalçı-terrorçu dövlət siyasətinə növbəti dəfə Soçidə əsaslı zərbə vurdu və Vladimir Putinin timsalında Rusiyanın tam siyasi dəstəyini qazandı.

Cənab İlham Əliyev Azərbaycan xalqının mövqeyini növbəti dəfə yüksək tribunadan bəyan edərək Ermənistana mesaj ünvanladı ki, Azərbaycan işğalla heç vaxt barışmayacaq.

### İlham Əliyevin yüksələn nüfuzu, Paşinyanın autsayderliyi...

Bütün bunların fonunda görünən real mənzərə odur ki, cənab İlham Əliyev işğalçı ölkənin istənilən siyasətçisini lazımi anda, mühüm yerdə qətiyyətlə susdurur və əsl erməni xislətini dünyaya bəyan edir. Müstəqil siyasəti, etibarlı tərəfdaşlığı, verdiyi sözünə sadiqliyi cənab İlham Əliyevin nüfuzunu yüksəldir. Elə buna görədir ki, Azərbaycan Prezidenti dünyanın ən mötəbər təşkilatlarının konfranslarına, forumlara dəvət edilir.

Elə cənab İlham Əliyevin iştirak etdiyi bir sıra tədbirlərdə ölkə rəhbərimizə göstərilən diqqət daim Ermənistan rəhbərliyinin siyasi autsayderlər sırasında dayanmasına səbəb olub. Cənab İlham Əliyev dəvət olunduğu toplantılarda müzakirə olunan istənilən məsələ ilə bağlı çıxış edir, öz kreativ təkliflərini irəli sürür və toplantılardan sonra mühüm görüşlər keçirir.

Ancaq Ermənistanın baş naziri rotasiya qaydasına əsasən ölkəsində keçirilən tədbirdə autsayder olur. Elə Avrasiya İqtisadi İttifaqının Yerevanda keçirilən sammitini göstərsək, yetərli olar. N.Paşinyan ev sahibi olmasına baxmayaraq, onun ittifaqın əsas gücü hesab edilən ölkənin - Rusiyanın Prezidenti Vladimir Putinlə görüşü son anda baş tutub. Belə ki, bənzər görüşlərin protokol qaydalarına görə, görüşü təşkil edən ölkənin rəhbəri ayrı-ayrılıqda hər bir dövlət və hökumət başçısı ilə görüşür, bir çox hallarda bu görüş geniş tərkibdə keçirilir, ikitərəfli münasibətlər müzakirə olunur.

Bu toplantı zamanı N.Paşinyan Rusiya Prezidenti Vladimir Putinlə normal görüş keçirməsi, danışıqlar masası arxasında oturması üçün dəridən-qabıqdan çıxırdı. Ancaq Vladimir Putinin Paşinyana münasibəti o qədər mənfi idi ki, hətta onunla yanyana oturmadı. Sammit çərçivəsində çəkilən şəkildə Vladimir Putinin kənarda dayanması, prezidentlə avtobusda oturanda lap arxada Paşinyandan uzaqda yerləşməsi və səfərin sonunda aeroportda ayaqüstü görüşməsi əslində Rusiyanın dövlət başçısının Paşinyanı bir dövlət başçısı kimi qəbul etməməsindən irəli gəlirdi.

Əlbəttə ki, N.Paşinyanın hətta ən adi görüşlərdə hesaba alınmaması onun siyasi, eləcə də şəxsi nüfuzunun yox səviyyəsində olduğunu sübut etdi. Bu, Ermənistana və onun baş nazirinə olan münasibətin göstəricisi idi.

### Ən yaxın strateji tərəfdaş, 5,8 milyard dollarlıq qarşılıqlı sərmayə...

Cənab İlham Əliyevin istər Azərbaycanın evsahibliyi etdiyi konfranslarda, forumlarda, istərsə də dəvət aldığı beynəlxalq toplantılarda keçirdiyi görüşlər, apardığı danışıqlar Azərbaycan Prezidentinin bir daha artan nüfuzunun göstəricisidir.

Misal olaraq bu ilin aprelində "Bir kəmər, bir yol" İkinci Beynəlxalq Əməkdaşlıq Forumunda iştirak etmək üçün Çinə səfər edən Prezident İlham Əliyevin Çin Xalq Respublikasının Sədri Si Cinpin ilə görüşünü göstərə bilərik. Bu tarixi görüşdə Si Cinpin Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın uğurlu daxili və xarici siyasət həyata keçirdiyini, ölkəmizin beynəlxalq aləmdə nüfuzunun artdığını, Azərbaycanda sabitliyin təmin olunduğunu, xalqımızın rifah halının yüksəldiyini, iqtisadi sahədə inkişafa nail olunduğunu bildirdi. Bir daha xatırladaq ki, bu tədbirə Cənubi Qafqazdan yalnız Prezident İlham Əliyev dəvət olunmuşdu.

Elə Soçidə Prezident Vladimir Putinlə cənab İlham Əliyev arasında baş tutan çox yüksəksəviyyəli ikitərəfli görüş də bunun əyani təzahürüdür. Əgər Yerevanda Vladimir Putin N.Paşinyanı bir ölkə rəhbəri kimi qəbul etmədiyini göstərmişdisə, Soçidə İlham Əliyevlə yaxın dost, ən yaxın strateji tərəfdaş olduğunu bir daha nümayiş etdirdi.

Prezident İlham Əliyev Azərbaycanla Rusiya arasında münasibətlərə toxunaraq vurğuladı ki, Rusiya-Azərbaycan münasibətləri artıq çoxdan ikitərəfli çərçivədən çıxaraq regionumuzda sabitliyin mühüm amilinə çevrilib: "Toqquşmaların, xaosun, vətəndaş müharibələrinin, münaqişələrin, dini ekstremizmin tüğyan etdiyi dənizdə Rusiya və Azərbaycanın sabit ictimai-siyasi vəziyyətdə olan və o cümlədən beynəlxalq terrorizmə, ekstremizmə qarşı mübarizədə qarşılıqlı fəaliyyət göstərən ölkələr olduğunu görmək üçün bizim regiona baxmaq kifayətdir. Həm Rusiya, həm də Azərbaycan Qafqaz ölkələridir. Təbii ki, bizi Qafqaz birləşdirir. Bizi Xəzər dənizi birləşdirir. Qeyd etməliyəm ki, təhlükəsizliyin və əməkdaşlığın möhkəmləndirilməsi işində ötən ilin avqustunda Aktauda Xəzər dənizinin hüquqi statusunun tənzimlənməsi haqqında konvensiyanın imzalanması böyük rol oynadı".

Bu gün iki ölkə arasında çox fəal siyasi dialoq mövcuddur. Dövlət başçılarının və digər rəsmi şəxslərin müntəzəm görüşləri əməkdaşlığın dərinləşməsinə şərait yaradır. Ticari-iqtisadi münasibətlərin inkişafında müsbət dinamika müşahidə olunur. Prezident İlham Əliyev də vurğuladı ki, hər il əmtəə dövriyyəsi artır. Beş yol xəritəsi çərçivəsində əməkdaşlığın prioritet istiqamətlərinin müəyyən edilməsi, şübhəsiz ki, ticari əlaqələrin daha da genişlənməsinə səbəb olacaq. Azərbaycanda Rusiya kapitallı 700-ə yaxın şirkət fəaliyyət göstərir. Ölkəmiz Rusiyaya 1,2 milyard dollar, Rusiya Azərbaycana 4,6 milyard dollar həcmində sərmayə qoyub.

İki ölkə arasında hərbi-texniki əməkdaşlıq fəal inkişaf edir. Soçidə dövlət başçıları arasında aparılan danışıqlar zamanı bu istiqamətdə işi davam etdirmək barədə razılıq əldə edilib: "Hərçənd Rusiyadan texnika alınması çərçivəsində bizim aramızda artıq imzalanmış kontraktların məbləği 5 milyard dollar təşkil edir, bunun 3 milyard dolları artıq reallaşıb. Biz bu istiqamətdə işi davam etdirmək niyyətindəyik" deyə Prezident İlham Əliyev vurğulayıb.

İki ölkə arasındakı əməkdaşlığın mühüm istiqamətlərindən biri də nəqliyyat sahəsidir. 2018-ci ildə Şimal-Cənub dəhlizi vasitəsilə daşınmış yüklərin həcmi əvvəlki ildəkindən 8 dəfə çox olub. Prezident həcmlərin hələlik böyük olmadığını, lakin dinamikanın güclü təsir bağışladığını diqqətə çatdırıb: "Onu da qeyd etmək istərdim ki, Şimal-Qərb dəhlizi də işə düşüb. Rusiyadan yüklər Azərbaycan ərazisindən keçməklə həm cənub, həm də qərb istiqamətində göndərilir. Bu, çox cəhətdən onun sayəsində mümkün olur ki, biz tarif siyasətimizi razılaşdırmışıq və son vaxtlar Azərbaycanda müasir nəqliyyat infrastrukturuna böyük sərmayə yatırılıb".

### Prinsipial siyasət, hücum diplomatiyasının uğurları

Bütün bunlar bir daha təsdiq edir ki, bu gün Azərbaycan müasir beynəlxalq münasibətlər sistemində əməkdaşlıq əlaqələrinin qurulmasına, transmilli layihələrin reallaşdırıcısıtək qlobal təhlükəsizlik məsələlərinə, Avropanın enerji təhlükəsizliyinə öz töhfəsini verən fəal aktor və regional güc kimi qəbul edilməkdədir.

Tarix sübut edib ki, dövlətin inkişafında dahi şəxsiyyətlərin, siyasi liderlərin çox böyük rolu olub. Siyasi müdriklik, dövlət idarəçiliyində yüksək səriştə, milli maraqların hər şeydən üstün tutulması, qətiyyətlilik və dəmir iradə liderlərin fəaliyyətinin ana xəttini təşkil edir. Məhz buna görə də tarixi şəxsiyyətlər əsrlərin və nəsillərin yaddaşında əbədi yaşayırlar. Zaman ötdükcə onların xalqı və vətəni üçün etdiklərinin, ölkəsinin inkişafındakı xidmətlərinin əhəmiyyəti daha çox nəzərə çarpır.

2003-cü ildən etibarən Azərbaycanı hərtərəfli tərəqqi yoluna çıxaran Prezident İlham Əliyevin yürütdüyü xarici siyasət Azərbaycanı dünya birliyinin etibarlı tərəfdaşına çevirib. Azərbaycanın dövlətçilik tarixinə adını qurucu Prezident kimi yazdıran cənab İlham Əliyevin Dağlıq Qarabağ münaqişəsi ilə bağlı qətiyyətli mövqeyi dəyişməzdir. Dövlət başçısının bu mövqeyi fonunda həyata keçirilən prinsipial siyasət, hücum diplomatiyası Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində öz nəticələrini göstərir. Beynəlxalq təşkilatlar Azərbaycanın prinsipial mövqeyi fonunda Ermənistanın qeyri-konstruktiv mövqeyinin, status-kvonun saxlanılması cəhdlərinin davam etməyəcəyi qənaətini ifadə edirlər.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

---

# Ukrayna portalında "Qarabağ Azərbaycandır və nida işarəsi" sərlövhəli məqalə dərc edilib




AZƏRTAC-ın Ukrayna, Belarus və Moldova üzrə xüsusi müxbiri Emil Hüseynlinin Ukrayna portalında (https://everyday.in.ua/?p=17998) Azərbaycan Prezidenti İlham Əliyevin Soçi səfərinin yekunlarına dair "Qarabağ Azərbaycandır və nida işarəsi" sərlövhəli məqaləsi dərc edilib.

Yazıda müəllif əsas diqqəti Prezident İlham Əliyevin "Valday" Beynəlxalq Diskussiya Klubunun XVI illik iclasının plenar sessiyasındakı çıxışında Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə dair söylədiyi fikirlərə yönəldib. Məqalədə Ermənistanın baş naziri N.Paşinyana tutarlı cavab olaraq "Qarabağ Azərbaycandır və nida işarəsi" fikrinin Prezident İlham Əliyevin xarici siyasətinin növbəti uğuru kimi qeyd edilir. Bildirilir ki, dövlət başçısı bununla Dağlıq Qarabağ münaqişəsinin həllində Azərbaycanın dəyişməz mövqeyini bir daha nümayiş etdirdi.

Yazıda həmçinin vurğulanır ki, Prezident İlham Əliyevin bu çıxışından sonra Gənclər və İdman Nazirliyi tərəfindən "Qarabağ Azərbaycandır və nida işarəsi" beynəlxalq gənclər kampaniyasına başlanılıb. Sosial şəbəkələrdə #Karabakh #AllForKarabakh i #KarabakhIsAzerbaijan həşteqləri ilə Dağlıq Qarabağ münaqişəsi ilə bağlı həqiqətlər yazılacaq. Bununla da dünya ictimaiyyətinin fikri bu münaqişənin ədalətli həllinə yönəldiləcək.

---

# *Leyla ABDULLAYEVA:* "Ermənistan XİN-in "xalqların sülhə hazırlanmasından" danışması riyakarlıqdan başqa bir şey deyil"

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsinin rəisi Leyla Abdullayeva Ermənistan Xarici İşlər Nazirliyinin Azərbaycan Prezidentinin "Valday" Beynəlxalq Diskussiya Klubundakı çıxışı ilə əlaqədar yaydığı açıqlamaya dair AZƏRTAC-ın sualını cavablandırıb.

Leyla Abdullayeva deyib: "Əvvəlcə onu vurğulamaq istərdim ki, Azərbaycan Respublikasının Prezidenti "Valday" beynəlxalq toplantısında çıxışı zamanı Ermənistan-Azərbaycan münaqişəsi ilə bağlı tarixi həqiqətləri və Ermənistan tərəfinin əsassız iddialarına cavabı tam aydın və konkret şəkildə ifadə etdi. Ermənistan tərəfinin tez-tez səsləndirdiyi və guya ki, Dağlıq Qarabağın sovet dövründə Azərbaycana verilməsi ilə bağlı tamamilə yalan bəyanatlarına cavab olaraq, Bolşevik partiyasının Qafqaz bürosunun 1921-ci il 5 iyul tarixli qərarına istinad edilərək, burada Dağlıq Qarabağın Azərbaycanın tərkibində saxlanması barədə qərar verildiyi, ermənilərin yalandan iddia etdiyi kimi, heç də "Dağlıq Qarabağın Azərbaycana verilməsi" ifadəsinin işlədilmədiyi qeyd olundu. Dağlıq Qarabağın tarixi Azərbaycan torpağı olması, ölkəmizin ayrılmaz hissəsi olması ilə bağlı tam həqiqət dövlət başçısı tərəfindən qəti şəkildə ifadə edildi.

Ermənistan siyasi rəhbərliyinin son zamanlar münaqişənin həlli üzrə yeni formula kəşfini qələmə verməyə çalışması və bu xüsusda "Dağlıq Qarabağ xalqı" ifadəsini işlətməsi ilə əlaqədar qeyd etmək istərdik ki, dövlət başçısı tərəfindən "Dağlıq Qarabağ xalqı" anlayışının olmadığı, Dağlıq Qarabağın erməni və azərbaycanlı əhalisinin olduğu tam əsaslı şəkildə "Valday" beynəlxalq forumunda vurğulandı.

Münaqişənin həlli üzrə uzun illərdir ki, aparılan danışıqların əsas prinsipləri və elementləri hamıya bəllidir və onlar ATƏT-in Minsk qrupunun həmsədrlərinin bəyanatlarında, o cümlədən bu ilin 9 mart tarixli bəyanatında açıq şəkildə ifadə olunub. Hər hansı yeni və əsası olmayan "kəşflər" prosesin irəli aparılmasına heç də yardımçı olmur, xüsusilə də əgər burada söhbət faktları və mövcud həqiqətləri məqsədyönlü şəkildə təhrif etməkdən gedirsə. Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin münaqişədən əvvəl birgə yaşayan azərbaycanlı və erməni əhalisi var, burada hər hansı "xalq" anlayışını işlətmək yalnız özü-özünü aldatmaqdır. Çünki belə bir anlayış mövcud deyil.

Erməni terror təşkilatı "ASALA"nın rəhbərlərindən biri olan Monte Melkonyanı milli qəhrəman elan edərək, terrorçuların dövlət səviyyəsində qəhrəmanlaşdırılması siyasətini aparan Ermənistanın Azərbaycanın Dağlıq Qarabağ və ətraf bölgələrinin işğalı zamanı mülki əhaliyə qarşı törətdiyi vəhşiliklər bütün beynəlxalq ictimaiyyətə bəllidir. 1992-ci ildə Xocalıda dinc sakinlərə qarşı törədilmiş soyqırımı, 2011-ci ildə 9 yaşlı Fariz Bədəlovun snayperlə öldürülməsi, 2012-ci ildə 14 yaşlı Aygün Şahmalıyevanın "oyuncaq tələsi" ilə qətlə yetirilməsi, 2016-cı ilin Aprel döyüşləri zamanı Ermənistan silahlı qüvvələri tərəfindən mülki əhalinin və mülki obyektlərin məqsədyönlü şəkildə hədəfə alınması və 6 nəfər mülki şəxsin həlak olması, 2017-ci ilin iyul ayında 2 yaşlı körpə Zəhranın və nənəsinin qətlə yetirilməsi, bir neçə gün öncə dövlət sərhədinə yaxın ərazidə ekskavator sürücüsünün öldürülməsi və digər bu kimi vəhşiliklər Ermənistanın dövlət səviyyəsində həyata keçirdiyi işğal və terrorçuluq siyasətinin bariz nümunələridir. Mülki azərbaycanlıların qəsdən hədəfə alınması və qətlə yetirilməsi Ermənistanın dövlət səviyyəsində həyata keçirdiyi siyasətdir. Bu siyasətin əsasını etnik nifrət, irqi ayrıseçkilik və ksenofobiya təşkil edir.

Ermənistan tərəfindən Azərbaycana qarşı təcavüzkar siyasətin tərkib hissəsi kimi işğal olunmuş ərazilərimizdə maddi-mədəni və dini abidələrin dağıdılması, talan edilməsi, mənimsənilməsi, habelə Ermənistan ərazisində Azərbaycan xalqına məxsus maddi-mədəni irsin məhv edilməsi siyasəti əslində yalnız Azərbaycan xalqına qarşı deyil, ümumbəşəri sivilizasiyaya qarşı törədilən bir vəhşilikdir.

Bütün bu qeyd edilənlər fonunda Ermənistan rəhbərliyinin nə dəyərlərdən, beynəlxalq öhdəliklərdən, nə də demokratiyadan danışmağa heç bir haqqı yoxdur. Bolşevik diktaturasına bənzər şəkildə inqilabi diktatura rejimi qurulan Ermənistanda hər hansı demokratiyadan danışmaq gülüncdür.

Ermənistanın müdafiə nazirinin "yeni müharibələr, yeni ərazilər" deyə bəyanatla çıxış etməsi, digər yüksək vəzifəli rəsmi şəxsin "bir qarış Azərbaycan torpağı azad edilməyəcək" deməsi, baş nazirin isə Azərbaycan ərazilərinin anneksiyasına çağırması halında Ermənistan XİN-in "xalqların sülhə hazırlanmasından" danışması riyakarlıqdan başqa bir şey deyildir. İlk növbədə, Ermənistan rəhbərliyinin sülhə hazırlanmasına ehtiyac vardır.

Münaqişə BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələri, Helsinki Yekun aktı, beynəlxalq hüququn norma və prinsipləri əsasında Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll olunmalıdır. Bütün beynəlxalq ictimaiyyət Azərbaycanın ərazi bütövlüyü və suverenliyini tanıyır və dəstəkləyir.

"Dağlıq Qarabağ Azərbaycandır və nida işarəsi". Ermənistan BMT Təhlükəsizlik Şurasının qətnamələrinə əməl edərək Azərbaycanın işğal olunmuş ərazilərindən öz qoşunlarını çıxarmalı və azərbaycanlı məcburi köçkünlər öz doğma torpaqlarına qayıtmalıdır.

Ermənistanın siyasi rəhbərliyi yalançı, populist və demaqoqik düsturlara vaxt sərf etmək əvəzinə münaqişənin həlli ilə bağlı real addımlar atmalıdır".

---

# *Şamil AYRIM:* "Prezident İlham Əliyevin Soçi bəyanatı Türkiyədəki azərbaycansevərlər tərəfindən rəğbətlə qarşılandı"

Prezident İlham Əliyevin Soçidə "Valday" Beynəlxalq Diskussiya Klubunun XVI illik iclasının plenar sessiyasında səsləndirdiyi "Qarabağ Azərbaycandır və nida işarəsi" bəyanatı Türkiyədəki bütün azərbaycansevərlər tərəfindən rəğbətlə qarşılandı. Əslində Ermənistan tərəfi çoxdan siyasi nokaut vəziyyətindədir. Sadəcə, onlar heç vaxt özlərinə arxayın olmayıblar, hərdən bir dövlətin qoltuğuna sığınmaqla hədəfdən yayınmaq istəyirlər.

Bu fikirləri AZƏRTAC-a açıqlamasında Türkiyə-Azərbaycan parlamentlərarası dostluq qrupunun rəhbəri Şamil Ayrım söyləyib.



Təcavüzkar Ermənistanın Azərbaycana qarşı işğalçılıq siyasətini pisləyən dostluq qrupunun rəhbəri deyib ki, əsassız ittiham, yalan uydurmaq, böhtan danışmaq Ermənistan siyasətçiləri üçün davranış normasıdır.

Dostluq qrupunun rəhbəri vurğulayıb ki, Ulu Öndər Heydər Əliyev Azərbaycanın müstəqilliyini qorudu, möhkəmləndirdi. Bu siyasət Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Ermənistanın işğalçılıq siyasətinə baxmayaraq, Azərbaycan hərtərəfli inkişaf edir. Azərbaycanın güclənməsi Türkiyəyə də öz təsirini göstərir. Ermənistan tərəfi reallıqla barışmalı, Türkiyəyə qarşı əsassız iddialarından əl çəkməli, Azərbaycanın işğal altındakı torpaqlarını tərk etməlidir. Əks təqdirdə, Soçi zərbəsinin başqa variantları ilə qarşılaşmalı olacaq.

# *Əli HƏSƏNOV:* "Ən şərəfli peşə sahibi - müəllim!"



İnsanı öz halal zəhməti hesabına yaşadan və ucaldan hər bir peşə şərəflidir, hər bir peşə sahibi də hörmətə layiqdir. Lakin dünyada bir peşə var ki, o peşənin sahibləri hər bir cəmiyyətin, hər bir fərdin həyatında əlahiddə rol oynayır, insanların mənəvi və əqli inkişaf səviyyəsini müəyyən edir, yetkin bir vətəndaşa çevrilməsinə töhfə verirlər. Söhbət, əlbəttə ki, müəllimlərdən gedir. AZƏRTAC xəbər verir ki, bu fikirlər Azərbaycan Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənovun "Facebook" sosial şəbəkəsindəki səhifəsində paylaşdığı statusda yer alıb. Statusda deyilir:

"UNESKO-nun qərarı ilə 1994-cü ildən başlayaraq hər il oktyabr ayının 5-i Ümumdünya Müəllimlər Günü kimi qeyd olunur. Bu tarixin Azərbaycanda da Müəllimlər Günü kimi qeyd olunması barədə qərar Ümummilli Lider Heydər Əliyev tərəfindən verilib. "Mən dünyada müəllimdən yüksək ad tanımıram" söyləyən Ümummilli Lider Azərbaycana rəhbərlik etdiyi bütün dövrlərdə həmişə müəllimlərə, təhsil işçilərinə xüsusi ehtiramla yanaşıb, onların maddi vəziyyətinin, rifah halının yaxşılaşdırılmasını diqqətdə saxlayıb, bu müqəddəs peşə sahiblərinin qayğısına qalıb, hər fürsət düşdükcə öz müəllimləri ilə görüşərək onlara səmimi minnətdarlığını ifadə edib. Ulu Öndər qeyd edirdi ki, hər birimiz tutduğumuz mövqedən, hansı məslək və peşə sahibi olmağımızdan asılı olmayaraq bütün nailiyyətlərimizə görə ilk növbədə məktəbə və müəllimə borcluyuq.

Heydər Əliyevi yaxından tanıyanlar çox yaxşı bilirlər ki, Ulu Öndər dövlət quruculuğu prosesində, xüsusən də gənc nəslin yetişdirilməsində müəllimlərimizə özünün əsl silahdaşları kimi baxırdı. Əslində, ölkəmizin və millətimizin ən böyük müəllimi də elə Heydər Əliyevin özü idi. Onun bioqrafiyasını araşdıran bir çox tanınmış müəlliflər bu böyük dövlət adamını həm də Ustad müəllim kimi xarakterizə edirlər. Bəli, bu gün tərəddüdsüz söyləmək olar ki, müstəqil Azərbaycan dövlətinin banisi, görkəmli siyasi və dövlət xadimi Heydər Əliyev həm də ölkəmizdə dövlət qurmağın, onu qoruyub saxlamağın, hərbi-siyasi çevrilişlərin qarşısını almağın, milli-vətəndaş birliyi yaratmağın, xalqı vahid ideya - azərbaycançılıq məfkurəsi ətrafında səfərbər etməyin yollarını göstərən əsl müəllim idi. Bu gün Azərbaycan iqtidarı istər dövlət idarəçiliyində, istər daxili siyasətdə, istərsə də diplomatiyada məhz öz Müəlliminin - Heydər Əliyevin göstərdiyi, müəyyən etdiyi yolla gedir.

Ümummilli Liderin siyasi irsinin davamçısı Prezident İlham Əliyevin hakimiyyəti dövründə ölkəmizdə müəllimlərimizə, bütövlükdə təhsilə və təhsil işçilərinə eyni həssaslıqla xüsusi diqqət və qayğı göstərilir. Bəzi faktları qeyd etmək istəyirəm: İlham Əliyevin hakimiyyəti dövründə ölkəmizdə 3200-dən çox məktəb tikilib, yaxud əsaslı təmir edilib. Ali məktəblərin binaları təmir edilib və yenidən qurulub, texniki təminatı ən yüksək səviyyəyə qaldırılıb, filialları ilə birgə sayları və coğrafiyası iki dəfəyə qədər genişləndirilib. Hər yeni dərs ilinin başlanğıcı Azərbaycanda onlarla yeni məktəbin, eləcə də bu və ya digər ali məktəbin, yeni fakültələrin, yeni tədris korpuslarının açılışı ilə yadda qalır. Təhsil müəssisələrinin texniki təchizatına, dərsliklərlə təmin edilməsinə hökumət tərəfindən xüsusi nəzarət olunur. Milli kadrların hazırlanması məqsədilə son on beş ildə minlərlə Azərbaycan gənci dövlət hesabına xarici ölkələrdə təhsil alıb və almaqda davam edir. Bu istiqamətdə pedaqoji kadrların hazırlanması işi də ildən-ilə təkmilləşdirilir, zəruri sahələrdə mütəxəssislərin hazırlanması, təcrübə mübadiləsi, ixtisas artırması və s. istiqamətdə xarici təhsil müəssisələri ilə geniş əməkdaşlıq edilir.

Azərbaycanda müəllimlərin maddi rifah halının yaxşılaşdırılması məqsədilə Prezident tərəfindən davamlı olaraq xüsusi addımlar atılır. Ölkə başçısının müvafiq sərəncamına əsasən, müəllimlərin aylıq vəzifə maaşları cari il sentyabrın 1-dən orta hesabla 20 faiz artırılıb və beləliklə, orta aylıq əməkhaqqı 600 manata çatıb. Bu dəyişiklikdən sonra aylıq əməkhaqqı 1000 manatdan çox olan müəllimlərin sayı ölkə üzrə təxminən 5000 nəfəri ötüb. Bundan başqa, ötən tədris ilində ümumtəhsil müəssisələrində çalışan müəllimlərin bilik və bacarıqlarının diaqnostik qiymətləndirilməsi işi uğurla başa çatdırılıb, ümumilikdə 150 mindən çox müəllimin həftəlik dərs yükü 1,5 dəfə, vəzifə maaşı 2 dəfə artırılıb. Beləliklə, cənab Prezidentin qeyd etdiyi kimi, dövlətin imkanları, büdcənin gəlirləri artdıqca təhsil işçilərinin də maaşları artırılır və bu addımlar gələcəkdə də davam etdiriləcək, digər vətəndaşlarımız kimi, müəllimlərin də maddi rifahının yüksəldilməsi üçün lazımi qərarlar qəbul ediləcək.

Bir faktı xüsusi qeyd etmək istəyirəm ki, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun rəhbəri Mehriban xanım Əliyeva ölkəmizdə müasir standartlara cavab verən təhsil komplekslərinin yaradılması və məktəblərdə tədrisin səviyyəsinin yüksəldilməsi işinə xüsusi diqqət yetirir. Onun təşəbbüsü ilə 2005-2012-ci illər ərzində həyata keçirilən "Yeniləşən Azərbaycana yeni məktəb" proqramı çərçivəsində ölkənin müxtəlif bölgələrində 100 mindən artıq şagirdin təhsil aldığı 400-dək məktəb binası inşa olunmuş və ya yenidən qurulmuşdur. Fondun təhsil proqramlarında aztəminatlı ailələrdən olan şagirdlər də unudulmur və hər tədris ilinin əvvəlində aztəminatlı ailələrin birinci sinfə gedən uşaqlarına bütün məktəb ləvazimatları hədiyyə edilir.

Əziz müəllimlər, sonda diqqətinizi Ümummilli Liderin belə bir tarixi fikrinə yönəltmək istəyirəm. Ulu Öndər söyləyirdi ki, müəllimlərimizin əsas vəzifəsi əlbəttə ki, ilk növbədə gənc nəslə - məktəblərə qədəm qoyan şagirdlərə, ali məktəblərə qəbul olunan gənclərə yaxşı təhsil verməkdən ibarətdir. Amma gərək unutmasınlar ki, hər bir azərbaycanlı gənc yaxşı təhsil almaqla yanaşı, həm də gərək dəyərli vətəndaş kimi formalaşsın, öz dövlətinə, millətinə və xalqının adət-ənənələrinə sadiq vətəndaş kimi yetişsin!

Beləliklə, gələcəyimiz sizlərə əmanətdir, əziz müəllimlər! Peşə bayramınız mübarək olsun!"

# *Əli ƏHMƏDOV:* "Biz dövlətimizin gələcəyini gənclərdə görürük"

Oktyabrın 5-də Yeni Azərbaycan Partiyasının Siyasət Akademiyası "Azərbaycan Respublikasının siyasi sisteminin yaranması və formalaşmasında Yeni Azərbaycan Partiyasının yeri və rolu" mövzusunda ilk kurs təşkil edib.



YAP-dan AZƏRTAC-a bildiriblər ki, kursda ilk olaraq Azərbaycan Respublikası Baş Nazirinin müavini, YAP Sədrinin müavini-icra katibi Əli Əhmədov "Yeni Azərbaycan Partiyası Azərbaycanın aparıcı siyasi qüvvəsidir" mövzusunda gənclər üçün məruzəçi qismində çıxış edib. Əli Əhmədov bildirib ki, belə bir kursların təşkil edilməsi gənclər üçün faydalıdır. Onun sözlərinə görə, məqsəd ondan ibarətdir ki, Yeni Azərbaycan Partiyasının gənc fəal üzvləri kursları keçərək öz siyasi biliklərini və dünyagörüşlərini genişləndirsinlər, siyasi təcrübə əldə etsinlər və Azərbaycanın ictimai-siyasi həyatında daha yaxından iştirak etmək üçün lazım olan vərdişləri qazanmış olsunlar. "Siz Yeni Azərbaycan Partiyasının gənc və fəal üzvlərisiniz. Partiyamızın həm bugünkü fəaliyyətində, həm də gələcək inkişafında sizin rolunuzu xüsusi vurğulamaq istəyirəm. Biz istəyirik ki, siz gənc nəsil olaraq inkişaf edəsiniz. Gələcəkdə partiyanın funksiyalarının həyata keçirilməsində daha yaxından iştirak etmək imkanınız olsun. Həm də bütövlükdə Azərbaycanın ictimai-siyasi həyatında geniş şəkildə iştirak edəsiniz. Bunun üçün də zəruri vərdişlərə ehtiyac var. Xüsusilə siyasi biliklər artırılmalıdır. Dünyanın hər yerində siyasi partiyaların nəzdində bu cür kurslar mövcuddur. Kursların məqsədi siyasi partiyaların vasitəsilə bütövlükdə cəmiyyətin siyasi həyatı üçün təcrübəli gənc siyasətçilərin formalaşmasından ibarətdir" deyən YAP Sədrinin müavini partiyamızın sıralarında sağlam, vətənpərvər, intellektual gənclərin birləşdiyini diqqətə çatdırıb. O qeyd edib ki, partiya üzvlərinin 40 faizi gənclərdən ibarətdir və bu, böyük siyasi gücdür. Gənclərin YAP-ın sıralarına axını onların öz gələcək siyasi talelərini Heydər Əliyev ideyalarına bağlaması, Prezident İlham Əliyevin siyasətini dəstəkləməsi ilə əlaqədardır.

Baş Nazirin müavini deyib ki, biz dövlətimizin gələcəyini gənclərdə görürük. Gənclər nə qədər savadlı, bilikli, vətənpərvər, öz ölkəsini sevən insanlar olarsa, o ölkənin gələcəyi o qədər də parlaq olur. Bizim çox dəyanətli və vətənpərvər gəncliyimiz var. Bu gəncliyimizlə fəxr edirik. İnanırıq ki, bu müasir gəncliyimiz Azərbaycanın gələcəyini daha da işıqlı və parlaq edəcək.

Əli Əhmədov mühazirəsində ilk olaraq dünyada siyasi sistemin formalaşması prosesindən bəhs edib və qeyd edib ki, siyasi sistemin əsasını dövlət təşkil edir. Onun sözlərinə görə, siyasi sistemin vacib elementlərindən biri də siyasi partiyalardır. YAP Sədrinin müavini deyib ki, hazırda dünya ölkələrinin mütləq əksəriyyətində çoxpartiyalı sistem mövcuddur. Onun sözlərinə görə, hüquqi-demokratik dövlət kimi müstəqil Azərbaycanda da çoxpartiyalı sistem mövcuddur.

YAP Sədrinin müavini partiyanın 1992-ci ilin noyabr ayında Ümummilli Lider Heydər Əliyevin rəhbərliyi ilə yaradıldığını və qısa müddət ərzində hakimiyyətə gəldiyini xatırladıb. YAP-ın keçdiyi inkişaf yolundan geniş bəhs edən Əli Əhmədov partiyanın Azərbaycanın aparıcı siyasi qüvvəsi olduğunu diqqətə çatdırıb. O, Prezident İlham Əliyevin rəhbərliyi ilə Yeni Azərbaycan Partiyasının əldə etdiyi nailiyyətlərdən ətraflı bəhs edib, Azərbaycan vətəndaşlarının partiyanın fəaliyyətini dəstəklədiyini, bütün seçkilərdə parlaq qələbələr qazandığını diqqətə çatdırıb.

Daha sonra kursda iştirak edən gənclərin sualları cavablandırılıb. Qeyd edək ki, layihə çərçivəsində müxtəlif mövzularda məruzələr dinləniləcək. Kursa Milli Məclisin deputatı, professor Elman Nəsirov rəhbərlik edir.

Layihənin sonunda isə kurslarda iştirak edən gənclərə sertifikatlar təqdim olunacaq.

# Heydər Əliyev siyasi irsinin, azərbaycançılıq məfkurəsi və dövlətçilik fəlsəfəsinin təbliği



Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında (DİA) fəaliyyət göstərən Heydər Əliyev Dövlət İdarəçiliyi Məktəbində 2019-2020-ci tədris ilində bakalavriat pilləsinə qəbul olunan birinci kurs tələbələri ilk mühazirələrini dinləyiblər.

Mühazirəni təqdim edən akademiyanın rektoru, akademik Urxan Ələkbərov Heydər Əliyev Dövlət İdarəçiliyi Məktəbi haqqında məlumat verərək deyib ki, Ümummilli Lider, müstəqil dövlətimizin memarı və qurucusu Heydər Əliyevin siyasi irsinin, azərbaycançılıq məfkurəsi və dövlətçilik fəlsəfəsinin təbliği bugünün vacib məsələlərindəndir. Rektor görkəmli siyasi və dövlət xadimi Heydər Əliyevin örnək olan tarixi xidmətlərindən bəhs edib. O, Ulu Öndərin siyasi xəttinin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini diqqətə çatdırıb Bildirib ki, müstəqilliyinin bərpasından cəmi 28 il keçsə də, Azərbaycan uğurla inkişaf edir və tarixi baxımdan çox qısa zaman kəsiyində ölkə dövlət quruculuğunun bütün sahələrində diqqətəlayiq tərəqqiyə nail olub.

Urxan Ələkbərov qazanılan uğurların əsasında Ulu Öndər Heydər Əliyevin müəyyənləşdirdiyi və Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilən dərin düşünülmüş innovativ inkişaf siyasətinin dayandığını xüsusi vurğulayıb. Akademik eyni zamanda diqqətə çatdırıb ki, ölkədə bütün istiqamətlərdə nailiyyətlərin qazanılmasında Birinci vitse-prezident Mehriban xanım Əliyevanın önəmli rolu var. Rektor vurğulayıb ki, əslində, daha az vəsaitlə yüksək göstəricilərə nail olunması dövlətin inkişaf proseslərinin idarə edilməsində Prezident İlham Əliyev tərəfindən işlənmiş innovativ sinergetik, komplimentar və kompensasion texnologiyalar kompleksinin tətbiqinin nəticəsidir. Həmin texnologiyalar ölkənin hərtərəfli inkişafı və əhalinin rifahının yüksəlməsi üçün iqtisadi imkanlardan səmərəli istifadəni təmin edib. Bu təcrübənin Dünya İqtisadi Forumunun hesabatında xüsusi təhlil predmetinə çevrilməsi onun qlobal əhəmiyyətinin göstəricisidir...

Mühazirədə ölkə iqtisadiyyatının sürətli inkişafı istiqamətində aparılan uğurlu siyasətin əsas hədəfləri, eləcə də davamlı inklüziv inkişafı xarakterizə edən göstəricilər müqayisəli şəkildə tələbələrin diqqətinə çatdırılıb. Azərbaycanın bir çox istiqamətlərdə regional və qlobal liderə çevrildiyini qeyd edən rektor ölkəmizin inkişaf göstəricilərinin beynəlxalq təşkilatlar, o cümlədən BMT, UNESKO, Dünya Bankı və digər nüfuzlu qurumların rəsmi sənədlərində, müstəqil ekspertlər tərəfindən hazırlanmış hesabatlarda təsdiqini tapdığını göstərib.

Respublikamızın "Böyük yeddilik" ölkələri ilə müqayisədə nəzərəçarpan inkişaf göstəricilərini diqqətə çatdıran akademik deyib ki, bu mühüm iqtisadi nailiyyətlər Ermənistanla münaqişə və torpaqlarımızın 20 faizinin işğalı fonunda qazanılıb. Ölkəmizin bu problemləri olmasaydı, qazanılacaq uğurların miqyası daha böyük ola bilərdi.

***Məhəmməd NƏRİMANOĞLU,***
***"Azərbaycan"***

# Ermənistanda "Əliyevin Paşinyana tutarlı cavabı" sərlövhəli məqalə dərc etdirən jurnalist təqib olunur



Ermənistanda "Əliyevin Paşinyana tutarlı cavabı" sərlövhəli məqaləni dərc etdirən "Aeli" ("Ayna") saytının baş redaktoru Anjela Tovmasyanın ofisinə basqın olub.

Bu yaxınlarda baş nazir Nikol Paşinyanın tərəfdarlarının parlamentdə istefasına səs verdikləri Konstitusiya Məhkəməsinin sədri Qrayr Tovmasyanın jurnalist bacısı Anjela Tovmasyan hökumətdən bu məqaləyə və qardaşının mövqeyinə görə təqiblərə son qoyulmasını tələb edib. O əlavə edib ki, baş nazirin tərəfdarlarının onu "Qarabağ əleyhinə" fəaliyyətdə ittiham etmələri də gülüncdür. Jurnalist qadının ofisinə basqın edənlər məqaləni dərc etmiş Hayeli.am qəzetinin də bağlanılmasını tələb ediblər.

AZƏRTAC erməni KİV-nə istinadla xəbər verir ki, "Aeli" ("Ayna") saytının baş redaktoru və eyniadlı mətbuat klubunun rəhbəri olan Anjela Tovmasyan jurnalistlərə özünün Yerevanın mərkəzindəki ofisinə basqın təşkil edildiyini və bu insidentin onu və qardaşını qorxutmaq məqsədi daşıdığını bildirib. O qeyd edib ki, hakimiyyətin öyrətdiyi dörd nəfər binanın şüşələrinə yumurta atıb və divarlara plakatlar yapışdırıblar. Bu iyrənc hərəkətləri həmin binada yerləşən "Qraparak" qəzetinin müxbiri videoya çəkib.

Jurnalist qadın deyib ki, ofisə basqın edilməsi onun jurnalist fəaliyyəti və qardaşının hakimiyyətin qanunsuz qərarlarına etiraz etməsi ilə əlaqədardır. Onun sözlərinə görə, Paşinyanın tərəfdarları bir neçə dəfə onun ailəsinə və özünə xəbərdarlıq mesajları göndəriblər. A.Tovmasyan insidenti törədənlərin cəzalandırılmasını tələb edib.

Xatırladaq ki, Paşinyanın "Mənim addımım" parlament fraksiyası Konstitusiya Məhkəməsi sədrinin səlahiyyətlərinə xitam verilməsi barədə səsvermə keçirib və qərarı təsdiq edilməsi üçün məhkəmənin üzvlərinə göndərib.

# *Azay QULİYEV:* "Paşinyan növbəti açıqlaması ilə Ermənistanın anneksiya və işğalçılıq siyasətini rəsmən etiraf etmiş oldu"

ATƏT Parlament Assambleyasının (ATƏT PA) vitse-prezidenti Azay Quliyev qurumun Mərakeşdə keçirilən payız sessiyasında daimi komitənin iclasında çıxış edib. AZƏRTAC xəbər verir ki, Azay Quliyev çıxışında regionu narahat edən əsas məsələlərdən olan Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli prosesində substantiv irəliləyişin olmamasını və problemin digər aspektlərini iştirakçıların diqqətinə çatdırıb. Bu aspektlər Ermənistanın Baş naziri Nikol Paşinyanın təxribatçı və əsassız çıxışları ilə ölkəsinin yürütdüyü işğalçı və anneksiya siyasətinin iç üzünü açıb göstərməsi; erməni tərəfinin istifadə etdiyi "Dağlıq Qarabağ xalqı" anlayışının hüquqi və məntiqi cəhətdən reallığa aidiyyətinin olmaması; azərbaycanlı mülki şəxslərin erməni təxribatları nəticəsində qətlə yetirilməsinə ATƏT PA-nın insan hüquqları, demokratiya və humanitar məsələlər sahəsində ixtisaslaşmış 3-cü Ümumi Komitəsinin mövqe bildirməsinin əhəmiyyəti; ATƏT PA-nın Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsinin təyin edilməsi prosesini sürətləndirilməsinin vacibliyi; Azərbaycanın əsir və girovların "hamının-hamıya" prinsipi əsasında mübadilənin həyata keçirilməsinə dair təşəbbüsünə Ermənistanın göz yummasıdır.

Azay Quliyev ATƏT Parlament Assambleyasının ilk dəfə olaraq ATƏT-ə üzv olmayan ölkədə keçirilməsini təşkilatın qonşu regionlarla birgə fəaliyyətə və bütün tərəfdaşları ilə qarşılıqlı dialoqun və əməkdaşlığın möhkəmlənməsinə verdiyi əhəmiyyətin bariz nümunəsi adlandırıb.

"Hazırda Moldovada Dnestryanı münaqişəsinin həlli istiqamətində, həmçinin Rusiya Federasiyası ilə Ukrayna arasındakı münasibətlərdə atılan bəzi ümidverici addımların, həm Rusiya, həm də Ukrayna tərəfdən çoxsaylı əsirlərin dəyişdirilməsinin şahidi oluruq. Ancaq təəssüf ki, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı müsbət tendensiyaların olduğunu deyə bilmərik. Vəziyyət əksinə, gündən-günə pisləşir və Ermənistan rəhbərliyinin heç bir qanuni və ya məntiqi əsası olmayan təxribatçı açıqlamaları səbəbindən danışıqlar prosesində durğunluğun şahidi olduğumuzu deyə bilərəm. Bir neçə həftə əvvəl Ermənistanın Baş naziri Nikol Paşinyan Azərbaycanın işğal olunmuş ərazilərinə qanunsuz səfər edərkən münaqişənin həlli yolundan danışdı və Dağlıq Qarabağın Ermənistanın bir hissəsi olduğunu bildirdi. Bu, nə deməkdir? Bu suala kifayət qədər əsaslı cavab vermə
lazımdır: Birincisi, Dağlıq Qarabağın Ermənistan tərəfindən anneksiya edilməsi faktı onsuz da hər kəsə məlum olsa da, Paşinyanın açıqlaması bunu bir daha sübut etdi və bununla da Ermənistan öz anneksiya və işğalçılıq siyasətini rəsmən etiraf etmiş oldu. Bu mənə Ermənistan SSR Ali Sovetinin 1989-cu ilin dekabrında qəbul etdiyi və uzun müddət keçməmiş qanunsuz olduğuna görə rədd edilən "Ermənistan SSR və Dağlıq Qarabağın birləşdirilməsi haqqında" qərarını xatırlatdı. Bütün bu faktlar bir daha göstərir ki, Dağlıq Qarabağ münaqişəsi Ermənistanın iddia etdiyi kimi nə insan hüquqları, nə də xalqların öz müqəddəratını təyin etməsi hüququ ilə bağlı məsələ deyil - bu, haqqında artıq üç onillikdən çoxdur ki, danışdığımız açıq-aşkar anneksiya və Azərbaycan ərazilərinin işğalıdır. İkincisi, bu bəyanat ATƏT-in Minsk qrupu həmsədrlərinin münaqişənin danışıqlar yolu ilə həlli istiqamətində göstərdikləri səylərini tamamilə heçə endirir. Belə bir halda növbəti sual yaranır: əgər Ermənistan Dağlıq Qarabağı özünün bir hissəsi qismində nəzərdən keçirirsə, danışıqlara ehtiyac qalırmı? Ermənistan münaqişəni sülh yolu ilə həll etmək istəmirsə, sülh üçün alternativ nədir? Hesab edirəm ki, cavab hər kəsə aydındır", - deyə ATƏT PA-nın vitse-prezidenti bildirib.

ATƏT PA-nın Demokratiya, İnsan hüquqları və Humanitar məsələlər üzrə Ümumi Komitəsinin bürosunu bütün beynəlxalq konvensiyalarla qəti qadağan edilmiş bu qeyri-insani cinayətə dərhal reaksiya verməyə və onu qınamağa çağıran Azay Quliyev iki gün əvvəl Azərbaycan-Ermənistan sərhədində yerləşən Qazax bölgəsində Ermənistanın törətdiyi növbəti təxribatı haqqında da danışıb. Atəş nəticəsində orada yol salınması ilə məşğul olan ekskavatoru idarə etdiyi zaman mülki vətəndaş Səfərəli Abışovun həlak olduğunu qeyd edən A.Quliyev deyib: "Mən Ermənistan rəhbərliyini günahsız azərbaycanlı mülki şəxslərə qarşı edilən bu vəhşi hücumu izah etməyə və eyni zamanda, ATƏT PA-nın Demokratiya, İnsan hüquqları və Humanitar məsələlər üzrə Ümumi Komitəsinin bürosunu bütün beynəlxalq konvensiyalarla qəti qadağan edilmiş bu qeyri-insani cinayətə dərhal reaksiya verməyə və onu qınamağa çağırıram. Bundan başqa, Ermənistanın Baş naziri hər dəfə danışıqların nəticəsinin Ermənistan xalqı, Azərbaycan xalqı və Dağlıq Qarabağ xalqı üçün qəbuledilən olmağına dair ehtiyacın mövcudluğunu bildirir. Biz "Ermənistan xalqı" və "Azərbaycan xalqı" anlayışlarını başa düşürük. Amma mən "Dağlıq Qarabağ xalqı"nın kim olduğunu bilmək istərdim. Bu cür təbliğatla məşğul olan erməni siyasətçiləri başa düşməlidirlər ki, "Dağlıq Qarabağ xalqı" anlayışı mövcud deyil. Erməni və azərbaycanlı icmalarından ibarət olan Dağlıq Qarabağ regionunun əhalisi var. Digər məsələ isə ondan ibarətdir ki, Dağlıq Qarabağda yaşayan azərbaycanlılar Ermənistanın etnik təmizləmə siyasəti nəticəsində doğma yurdlarını tərk etməyə məcbur edilmişlər.

Buna görə də razılaşa bilərəm ki, münaqişənin həlli yalnız ermənilər üçün deyil, həm də Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin hər iki icması üçün məqbul olmalıdır".

ATƏT PA-nın vitse-prezidenti deyib ki, Ermənistan rəhbərliyinin bu cür davranışı və hərəkətləri gözlənilməz nəticələrə səbəb ola bilər: "Buna görə də Ermənistana tövsiyə edirəm ki, bölgədəki onsuz da həssas olan vəziyyəti qəlizləşdirməsin və danışıqlar prosesini pozmasın. ATƏT PA-nın Cənubi Qafqaz üzrə Xüsusi nümayəndəsinin təyin edilməsi prosesini sürətləndirməyə çağırıram".

Azay Quliyev ATƏT PA-nın prezidenti Georgi Tseretelini danışıqlar prosesindəki mövcud durğunluğu adekvat şəkildə aradan qaldırmaq və Assambleyanın Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həllindəki rolunu artırmaq məqsədilə ATƏT PA-nın Cənubi Qafqaz üzrə Xüsusi nümayəndəsinin təyin edilməsi prosesini sürətləndirməyə çağırıb. O bildirib ki, biz də ATƏT-in Minsk Qrupu həmsədrlərinə Ermənistanı ən qısa zamanda danışıqlar masasına qaytarmağa və böyük təhlükə mənbəyi olan status-kvonu dəyişdirmək üçün substantiv danışıqlar prosesini başlamağa kömək etməliyik. Bundan əlavə, ATƏT PA və onun bütöv ATƏT regionunda insan hüquqlarının icra olunmasına nəzarət edən Demokratiya, İnsan hüquqları və Humanitar məsələlər üzrə Ümumi Komitəsi Rusiya və Ukraynanın bu yaxınlıqda həyata keçirdiyi kimi, əsirlərin dəyişdirilməsi məsələsini diqqət mərkəzinə gətirməlidir. Ermənistan yenə də beynəlxalq təcrübəyə göz yumaraq Dilqəm Əsgərov və Şahbaz Quliyevi geri qaytarmaqdan imtina edir.

ATƏT PA-nın vitse-prezidenti vurğulayıb ki, Azərbaycan "hamının-hamıya" prinsipi əsasında əsir və girovların mübadiləsinə dair təşəbbüslə çıxış edib. Beş ildən çoxdur ki, sadəcə olaraq valideynlərinin məzarını ziyarət etmək istəmiş iki azərbaycanlı mülki şəxs - Dilqəm Əsgərov və Şahbaz Quliyev Azərbaycanın işğal olunmuş ərazilərində girov qismində saxlanılır. "Onların ailə üzvləri mənimlə bir neçə dəfə görüşüb və bu mülki şəxslərin erməni girovluğundan azad olunmasına yardım etmək üçün ATƏT PA-nı dərhal müvafiq addımlar atmağa çağırmağımı xahiş ediblər", - deyə A.Quliyev diqqətə çatdırıb.

# *Klayv MARŞAL:* "Azərbaycanda bir çox sahələrdə, o cümlədən media sahəsində inkişaf proseslərinin şahidi oldum"

İngilisdilli jurnalistlərin yazı müsabiqəsinin qalibinin müəyyənləşdirilməsi ilə əlaqədar Bakıda keçirilən tədbirdə iştirak etmək üçün Azərbaycana səfərə gələn Böyük Britaniyanın "Press Association" agentliyinin baş icraçı direktoru Klayv Marşal növbəti dəfə ölkəmizdə olmasından məmnunluğunu bildirib.

AZƏRTAC xəbər verir ki, Klayv Marşal səfəri zamanı ölkəmizdə bir çox sahələrdə, o cümlədən media sahəsində inkişafın şahidi olduğunu qeyd edib.

Ötən illər ərzində Azərbaycana bir neçə dəfə səfər etdiyini xatırladan baş icraçı direktor ölkəmizin regionlarını da ziyarət etdiyini vurğulayıb. O, Azərbaycan xalqının qonaqpərvərliyi, həmçinin Xınalıqda gördüyü möhtəşəm təbiət mənzərələri barədə təəssüratlarını bölüşüb.

Klayv Marşal səfəri çərçivəsində Azərbaycan Respublikası Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənovla görüşündən məmnunluqla bəhs edib. O, görüş zamanı Azərbaycanda medianın inkişaf perspektivlərinə dair dolğun və səmimi fikir mübadiləsinin aparıldığını vurğulayıb.

Baş icraçı direktor ölkəmizə əvvəlki səfərlərindən danışarkən 2016-cı ildə Heydər Əliyev Fondunun dəstəyi və AZƏRTAC-ın təşkilatçılığı ilə Bakıda keçirilən, dünyanın informasiya siyasətini müəyyənləşdirən 100-dən çox xəbər agentliyinin rəhbərlərini və təmsilçilərini, media üzrə tanınmış beynəlxalq ekspertləri bir araya gətirən Dünya Xəbər Agentlikləri Konqresində iştirakını xüsusilə qeyd edib.

Budəfəki səfəri çərçivəsində ADA Universitetində tələbələr qarşısında mühazirə ilə çıxış etdiyini də diqqətə çatdıran Klayv Marşal müasir dövrdə KİV-in, xüsusən informasiya agentliklərinin önəmli rolu, xəbərin dəqiqliyi və operativ yayılmasının əhəmiyyəti barədə fikirlərini bölüşdüyünü bildirib.

Xatırladaq ki, ingilisdilli jurnalistlərin yazı müsabiqəsi Böyük Britaniyanın Azərbaycandakı səfirliyinin və "Press Association" agentliyinin təşkilatçılığı ilə keçirilib.

# Vətəndaş rifahı, insan amili

## Prezident İlham Əliyevin ikinci sosial paketi ümumilikdə 750 mindən çox şəxsin pensiyasının artmasını təmin edib



*Əvvəli 1-ci səh.*

2020-ci ilin də dövlət büdcəsinin əsas prioriteti sosialyönümlülükdür. Büdcədən sosial xərclərə ayrılacaq məbləğin 40,7 faizi təşkil etməsi bunu bir daha təsdiqləyir.

Azərbaycan Prezidentinin təsdiqlədiyi "Əmək pensiyaları haqqında" qanununda dəyişiklik edilməsi barədə" qanunla ölkəmizdə əmək pensiyasının minimum məbləği oktyabrın 1-dən 160 manatdan 200 manata çatdırıldı. Dövlət başçısının cari ildə təqdim etdiyi və əhalinin rifah halının yaxşılaşdırılmasını təmin edən sosial islahatlar paketində pensiyaçıların sosial müdafiəsinin gücləndirilməsi, pensiya artımı xüsusi yer tutur. Xatırladaq ki, minimum pensiya bu ilin martın 1-dən 116 manatdan (bir sıra kateqoriyalar üzrə 80 manatdan) 160 manata çatdırılmışdı və həmin artım 233 min vətəndaşı əhatə etmişdi. Oktyabrın 1-dən isə pensiyanın minimum məbləğinin 200 manata çatdırılması 660 min nəfər pensiyaçını əhatə etdi.

Bununla da dövlət başçısının sosial islahatlar paketinin tərkib hissəsi kimi, ölkəmizdə əmək pensiyasının minimum məbləği bu il ərzində 72,4 faiz artırıldı. Digər tərəfdən, yeni məbləğlə ölkəmizdə minimum pensiya məbləğinin pensiyaçılar üçün yaşayış minimumunu (149 manat) 34,2 faizədək üstələməsi təmin edilir. Həmçinin minimum pensiyanın alıcılıq qabiliyyəti (PPP üzrə) baxımından Azərbaycan MDB-də ilk yeri tutur.

Xatırladaq ki, ötən ayın 1-dən dövlət qulluqçularının, hərbi qulluqçuların, ədliyyə, hüquq mühafizə, fövqəladə hallar, miqrasiya orqanları əməkdaşlarının, xüsusi rütbəli şəxslərin əməkhaqları artırılıb.

Bu da qanunvericiliyə əsasən xüsusi şərtlərlə pensiya təyin olunmuş 94 min nəfərin pensiyasının orta hesabla 31 faiz artmasına imkan verib.

Beləliklə, dövlət başçısı tərəfindən cari ildə təqdim edilən ikinci sosial paket ümumilikdə 750 mindən çox vətəndaşın pensiyasının ciddi şəkildə artmasını təmin edib ki, bu da ümumən əhalinin sosial müdafiəsinin gücləndirilməsində daha bir mühüm addımdır.

Sentyabrın 1-dən ölkədə minimum əməkhaqqı 40 faizədək artırılaraq 180 manatdan 250 manata çatdırılıb, həmçinin dövlət sektorunda çalışanların əməkhaqlarında 20-50 faiz artımlar edilib.

Ölkədə vətəndaş rifahına yönələn və 2019-cu ildə inqilabi xarakter alan sosial islahatların tərkib hissəsi kimi, bu il minimum əməkhaqqı məbləğinin 92,3 faiz artırılmasına, eyni zamanda bu məbləğin yaşayış minimumunu (180 manat) 40 faiz üstələməsinə nail olunub.

Minimum əməkhaqqı artımının ilk pilləsi minimum əməkhaqqı məbləği səviyyəsində olan vahid tarif cədvəlinin bütün pillələri üzrə edilən artımlar da nəzərə alınmaqla 950 min nəfərin (o cümlədən dövlət sektoru üzrə 600 min, özəl sektor üzrə 350 min nəfərin) maaşının artmasına imkan verib.

Azərbaycan minimum əməkhaqqının səviyyəsinə görə tək qonşu ölkələrlə deyil, MDB dövlətləri ilə müqayisə edildikdə alıcılıq qabiliyyəti indeksi üzrə artıq ikinci yerə sahibdir. Minimum əməkhaqqının artımı əhali gəlirlərinin artımına səbəb olmaqla əmək bazarındakı proseslərə də müsbət təsir edir, xüsusilə işçi qüvvəsinin rəqabət qabiliyyətinin artmasını, digər tərəfdən əməyin leqallaşdırılmasını stimullaşdırır.

Dövlət başçısının 18 iyun 2019-cu il tarixdə imzaladığı sərəncamlarla eyni zamanda dövlət sektorunda işləyənlərin əməkhaqlarının 20-50 faiz artırılması isə 400 min vətəndaşı əhatə edib.

İkinci sosial paketin tərkib hissəsi kimi, minimum əmək haqqının və dövlət sektorunda işləyənlərin əməkhaqlarının artımı ümumən 1 milyon 350 min insanın əməkhaqqı gəlirlərinin əhəmiyyətli şəkildə artması ilə nəticələnib.

Prezidentin müvafiq sərəncamları ilə minimum əmək haqqının, bir sıra müavinətlərin, təqaüdlərin, dövlət qulluqçularının, hüquq mühafizə orqanları əməkdaşlarının, müəllimlərin, büdcədən maliyyələşən bir sıra digər təşkilatlarda çalışanların əmək haqlarının artırılması, habelə əmək pensiyalarının minimum məbləğinin artırılması haqqında qanunvericiliyə edilən dəyişikliklər sosial xərclərin artımını şərtləndirib. Ona görə də bütün illərdə olduğu kimi, yenə də büdcənin sosialyönümlülüyü təmin ediləcək. "Azərbaycan Respublikasının 2020-ci il dövlət büdcəsi haqqında" qanun layihəsi və büdcə zərfinə daxil olan digər qanun layihələrinin artıq ilkin parametrləri bəllidir.

Bu əsasda əməyin ödənişi, təqaüdlər və sosial müavinətlər, o cümlədən əhalinin aztəminatlı təbəqələrinin sosial müdafiəsinin möhkəmləndirilməsi üzrə maliyyə təminatının yaradılması prioritet xərc istiqamətlərindən olacaq.

Büdcənin sosialyönümlü xərcləri cəmi xərclərin 40,7 faizini (2019-cu ildə 33,4 faiz) təşkil edəcək ki, bu da cari illə müqayisədə 2664,2 milyon manat çoxdur. Əməyin ödənişi üzrə xərclər 6723,4 milyon manat, təqaüdlər və sosial müavinətlər üzrə xərclər 3213,4 milyon manat, ərzaq məhsullarının alınması və təminatı üzrə xərclər 414 milyon manat (2019-cu ildə 640,6 milyon manat) və digər sosial xərclər üçün 81,2 milyon manat təşkil edəcək.

Onu da vurğulayaq ki, Prezident İlham Əliyevin iki sosial paketinin maliyyə tutumu 5,3 (bu il üçün 2,3 milyard, gələn il üçün isə 3 milyard) manat təşkil edir. Atılan addımlar dövlət başçısının çoxşaxəli sosial siyasətinin təzahür formalarının yalnız bir hissəsidir. Görünən odur ki, xalqın rifah halının daha da yaxşılaşdırılması üçün dövlət başçısının böyük sosial islahatlar paketi çərçivəsində hələ çox qərarlar qəbul olunacaq.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

# İlham Əliyevin yeni islahatlar paketi dünyanın ən mükəmməl sosial dəstək modellərindəndir

**Prezident İlham Əliyev ölkə vətəndaşlarının sosial müdafiəsinin mütəmadi gücləndirilməsini fəaliyyətinin başlıca məqsədlərindən biri kimi diqqətdə saxlayır. Onun düşünüb ortaya qoyduğu ideyalar və şəxsi təşəbbüsü sayəsində inqilabi iqtisadi, sosial islahatlar aparılır ki, bu da son nəticədə əhalinin yaşayışını yaxşılaşdırır və dövlətimizin qüdrətini artırır.**



Modern dövlət quruculuğu xəttini seçən və bu yolda fenomen bacarıq nümayiş etdirən cənab İlham Əliyev ölkəmizi nəinki regionun, hətta qitənin və dünyanın qabaqcıl dövlətləri sırasına çıxarmışdır. Cənab İlham Əliyevin dövlət quruculuğu modelinin digər coğrafiyalarda da öyrənilməsi, təqdir və tətbiq edilməsi bizdə qürur hissi doğurur. Artıq Azərbaycanda dövlət idarəetmə sistemində mövcud olan brend modellər dünya dövlətlərinə ixrac edilməkdədir. Buna misal kimi "Asan xidmət"i göstərmək olar. Siyasi, sosial, iqtisadi, hərbi sahədə aparılan islahatlar Azərbaycanın bütün komponentləri ilə müasir dünyanın sivil ölkələri sırasında layiqli yerini tutmasını təmin etdi.

Məlum olduğu kimi, hətta Avropanın özündə belə islahatlar heç də həmişə istənilən nəticəni vermir. Bəzən əks göstəricilərə gətirib çıxarır. Bəs Azərbaycanda aparılan islahatların uğurlarının sirri nədədir? Bu, ilk növbədə cənab İlham Əliyevin proseslərə kompleks yanaşması, islahatları qısa və uzun müddətlərə hesablanmış dövlət proqramları vasitəsilə həyata keçirməsi sayəsində mümkün olur. Bu proqramlar təkcə iqtisadi prosesləri deyil, həm də mənəvi, milli, tarixi sərvətlərimizin bərpasını, tərəqqisini özündə ehtiva edir. Bütün bunlar insanlarda sovet dövrünün unutdurduğu dövlətçilik hisslərini gücləndirir, daha böyük iqtisadi uğurlara səfərbər edir.

Neft kapitalının insan kapitalına çevrilməsi, informasiya texnologiyalarının inkişafı bütün sahələrdə İKT-dən istifadə qeyri-neft sektorunun dövlət büdcəsində çəkisini artırır. Bu da ciddi sosial islahatlara yol açır. Büdcə gəlirləri ölkə başçısının dediyi kimi, əhalinin rifah halının daha da yaxşılaşdırılmasına yönəldilir. Cənab İlham Əliyev islahatların nəticələrini qabaqcadan hesablamaq istedadına malikdir. Təsadüfi deyil ki, o, hələ bir müddət əvvəl xalqa müjdə vermişdi ki, 2019-cu il sosial inkişaf, əhalinin sosial müdafiəsi baxımından başqa illərdən fərqli olacaq. Xalq bu müjdənin reallaşmasını çox gözləmədi. Cari ilin ilk aylarından başlayaraq iki sosial paket təqdim olundu.

Birinci sosial islahatlar paketi nəticəsində minimum əməkhaqqı martın 1-dən 40 faizədək artırılaraq 130 manatdan 180, pensiyanın minimum məbləği isə 40 faizədək artırılaraq 116 manatdan 160 manata çatdırılıb. Bu gün həmin artımlardan 830 min insan yararlanır. Həmçinin aprelin 1-dən 14 kateqoriyaya aid şəxslər üzrə sosial müavinətlər, 9 kateqoriyaya aid şəxslər üzrə isə Prezidentin aylıq təqaüdlərinin məbləği orta hesabla 100 faiz artırılıb. Sosial təminat sisteminin əhatə dairəsi daha da genişləndirilib, 2 yeni təqaüd növü - sağlamlıq imkanları məhdud uşaqlara və I dərəcə əlilliyi olan şəxslərə qulluq edənlərə Prezidentin aylıq təqaüdü təsis olunub. Habelə aylıq sosial müavinət alan I dərəcə əlilliyi olan şəxslər üçün Prezidentin aylıq təqaüdü pensiya alan I dərəcə əlilliyi olan şəxslərə də şamil edilib. Sayı 80 minədək olan müharibə veteranlarına aylıq təqaüdlər təsis olunub. Sosial müavinət və təqaüd artımları, təsis olunan yeni təqaüdlər 300 min əlilliyi olan şəxslərdən ibarət 600 minədək vətəndaşın rifahını yaxşılaşdırıb. Bunlardan əlavə, məcburi köçkünlərin aylıq müavinəti 50 faiz artırılıb, 800 min vətəndaşın problemli kreditləri həll olunub, tələbələrin təqaüdlərində əhəmiyyətli artımlar edilib.

Ümumilikdə cari ilin ilk rübündə reallaşdırılan və artımların təmin edilməsi üçün əlavə olaraq dövlətin illik 1,9 milyard manat maliyyə yükünü üzərinə götürdüyü birinci sosial paket 3 milyona yaxın insanın rifahına mühüm dəstək oldu.

Prezident İlham Əliyevin ikinci sosial paketini əhatə edən 18 iyun 2019-cu il tarixli sərəncamları, minimum pensiyanın artırılması üçün yeni qanunvericilik təşəbbüsü isə əhalinin rifah halının yaxşılaşdırılması istiqamətində inqilabi addımların ardıcıl xarakter aldığını göstərir. "Minimum aylıq əməkhaqqının artırılması haqqında" sərəncama əsasən, ölkədə minimum əməkhaqqının məbləği cari il sentyabrın 1-dən 40 faizədək artırılaraq 180 manatdan 250 manata çatdırıldı. Bununla da cari ildə reallaşan iki sosial paket nəticəsində Azərbaycanda minimum əməkhaqqının məbləği 93 faiz artırılmış oldu. Bununla ölkəmizdə ilk dəfə olaraq minimum əməkhaqqının məbləği yaşayış minimumunu (180 manat) üstələdi. Yeni minimum səviyyədə olan əməkhaqqı belə yaşayış minimumundan 70 manat və ya 40 faiz çox oldu. Bu, Azərbaycan dövlətinin sosial siyasətinin növbəti uğuru olmaqla ölkəmizdəki sosial inkişafın daha bir göstəricisidir. Digər tərəfdən, yeni artımla Azərbaycan minimum əməkhaqqının alıcılıq qabiliyyətinə görə (PPP) MDB ölkələri arasında 2-ci yerə qalxdi. Minimum əməkhaqqının bu artımı 950 min nəfərin (muzdla çalışanların azı 63 faizini) maaşlarının artımına səbəb oldu ki, onlardan da 600 mini dövlət, 350 mini qeyri-dövlət sektorunda çalışanlardır.

Beləliklə, Azərbaycan minimum əməkhaqqının səviyyəsinə görə təkcə qonşu yox, MDB-yə üzv ölkələrlə də müqayisə edildikdə alıcılıq qabiliyyəti indeksi üzrə ikinci yerə sahiblənmiş oldu.

18 iyun 2019-cu il tarixində imzalanan digər sərəncamlarla eyni zamanda dövlət sektorunda işləyən müəllimlər, dövlət büdcəsindən maliyyələşən bir sıra təşkilatlarda çalışanlar, hərbi qulluqçular, hüquq mühafizə orqanları əməkdaşları, həm ümumi, həm də xüsusi növ üzrə dövlət qulluqçuları, hakimlər və digərlərindən ibarət 400 min nəfərin əməkhaqları da cari il sentyabrın 1-dən 20-100 faiz səviyyəsində artırıldı. Ümumilikdə ikinci sosial paket 1 milyon 350 min nəfəri əhatə edir ki, onlardan da 1 milyonu dövlət, qalanları özəl sektorda işləyənlərdir. Onu da qeyd edək ki, 2019-cu ildə reallaşan iki sosial paket nəticəsində minimum əməkhaqqının və dövlət sektorunda işləyənlərin əməkhaqlarının artımı üçün dövlət tərəfindən illik 2 milyard manat vəsait ayrılıb. Digər mühüm fakt: 2003-cü ilə nisbətən ölkə üzrə minimum əməkhaqqı 27,7 dəfə artırılaraq 250 manata çatdırılıb, orta aylıq əməkhaqqı isə 7,5 dəfə artaraq 77,4 manatdan 581,2 manata çatıb.

Qeyd etdiyimiz kimi, ikinci sosial paket çərçivəsində Prezident İlham Əliyevin yeni qanunvericilik təşəbbüsü kimi əmək pensiyasının minimum məbləğinin 25 faiz artırılaraq cari il oktyabrın 1-dən 160 manatdan 200 manata çatdırılması təmin edildi.

Bir qədər əvvəl dediyim kimi, dövlətimiz, iqtisadiyyatımız inkişaf etdikcə sosial islahatların da miqyası və sayı artacaq. Çünki bu tərəqqinin təməlində Ümummilli Lider Heydər Əliyevin Azərbaycanın tarixi ənənələrini və Avropa dəyərlərini özündə birləşdirən dövlətçilik konsepsiyası durur.

***Səttar MÖHBALIYEV,***
***Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri, Milli Məclisin deputatı***

# Ölkəmizdə nəhəng infrastruktur layihələri icra edilir

## Bu, Azərbaycana həm siyasi, həm də iqtisadi dividendlər gətirir

Azərbaycan dünyada neft ölkəsi kimi məşhurdur. Müstəqilliyimizin bərpasından sonra ölkəmizin neft sənayesi dünyanın üzünə açıldı. Hazırda Azərbaycan Avropanın enerji təhlükəsizliyinə mühüm töhfə verən ölkə kimi qəbul edilir. Bu sahədə nəhəng tranzit layihələri də həyata keçirilib.



Eyni zamanda ölkəmiz dünyanın nəqliyyat qurşağına çevrilib. Belə ki, tarixdə mövcud olan İpək yolunun bərpasından sonra Azərbaycan Şərqlə Qərbi birləşdirən mühüm ölkə sayılır. İpək yolunun bərpasında Azərbaycan həm təşəbbüsçü kimi, həm də ilk dəfə bu istiqamətdə mühüm işlər görən ölkə kimi tarixə düşüb. Belə ki, Azərbaycanda nəhəng infrastruktur layihələri icra edilir ki, bunun da sayəsində Şərqdən Qərbə və ya əksinə avtomobil və dəmiryolu ilə yüklərin daşınmasına böyük imkanlar yaranır.

Gürcüstanın ərazisində dəmiryolunun müasir dünya standartları səviyyəsinə çatdırılması və Türkiyənin sərhədinə kimi çətin bir relyefdə yeni dəmiryolu xəttinin çəkilməsi də məhz ölkəmizin ayırdığı maliyyə vəsaiti hesabına mümkün olub.

Xatırladaq ki, erməni lobbisi və onu dəstəkləyən beynəlxalq güclər Gürcüstan ərazisində bu işlərin görülməsinə mane olmağa çalışırdı. Prezident İlham Əliyev qətiyyətli addım ataraq bu nəqliyyat dəhlizinin Gürcüstan ərazisindən keçən hissəsində görüləcək işlər üçün vəsait ayırdı. Beləliklə, ölkəmizin də daxil olduğu bu nəhəng layihənin icrasının qarşısını kəsmək istəyən güclərin müqaviməti qırıldı.

Şərq-Qərb dəhlizinin Azərbaycan, Gürcüstan və Türkiyə ərazisində görülən işlər bu marşrutu cəlbedici etdi. Sözsüz ki, Orta Asiyada, xüsusilə Qazaxıstan və Türkmənistanda da aparılan işlər Çin və Avropa ölkələrində bu marşruta maraq göstərməsinə səbəb oldu. Nəticədə bu dəhliz işlək vəziyyətə gəldi, Şərqdən Qərbə, Qərbdən Şərqə yüklər daşınmağa başlandı. Qeyd edək ki, həyata keçirilən tədbirlər sayəsində bu marşrut üzrə yükdaşıma ildən-ilə artmağa doğru gedir. Bu işdə Ələt Beynəlxaq Ticarət Limanının tikilməsinin də xüsusi əhəmiyyəti var. Xəzərin şərq, şimal və cənub istiqamətlərindən gələn gəmi və bərələr yükləri həmin limana asanlıqla çatdıra bilir ki, bu da yüklərin şərq və qərb istiqamətinə ötürülməsinə imkan yaradır.

Bununla yanaşı, Azərbaycan beynəlxalq əhəmiyyətli digər bir layihənin də reallaşmasında önəmli oyunçuya çevrilib. 2000-ci ilin 12 sentyabr tarixində Rusiya, İran və Hindistan arasında imzalanmış hökumətlərarası sazişə əsasən, Şimal-Cənub nəqliyyat dəhlizinin təməli qoyuldu. Azərbaycan bu prosesin mərkəzində rol almağa başladı. Belə ki, Şimal-Cənub, Şərq-Qərb nəqliyyat dəhlizlərinin qovuşduğu coğrafi məkan Azərbaycandır. Bu o deməkdir ki, Şimal və ya Cənub dəhlizindən gələn yüklər Azərbaycan vasitəsilə həm Şərqə, həm də Qərbə göndərilə bilər. Həmin şərtlər ölkəmizi bu layihədə mühüm tərəfdaşa çevirib. Çünki Azərbaycan bu layihələrdə iştirak etməsə, onların heç birini reallaşdırmaq mümkün deyildi.

Şərq-Qərb nəqliyyat dəhlizi kimi, Şimal-Cənub dəhlizi də region və regiondankənar ölkələrin diqqətini özünə cəlb edib. Bunun nəticəsidir ki, Azərbaycanla yanaşı Belarus, Bolqarıstan, Ermənistan, Qazaxıstan, Qırğızıstan, Oman Sultanlığı,Tacikistan, Türkiyə və Ukrayna da bu layihəyə qoşularaq onu qanuniləşdirmək üçün ratifikasiya etmişdir.

Həmin ölkələrin Şimal-Cənub nəqliyyat dəhlizinə qoşulmaq istəməsi başadüşüləndir. Belə ki, dəhlizin yaradılmasında əsas məqsəd Hindistandan Rusiyaya, eləcə də Şimali və Qərbi Avropaya gedən yüklərin çatdırılma müddətinin azaldılmasıdır. Qeyd edək ki, hazırkı marşrut üzrə yüklərin çatdırılma müddəti 6 həftədən artıqdır. Lakin mütəxəssislərin hesablamalarına görə, Şimal-Cənub nəqliyyat dəhlizinin vasitəsilə yüklərin daşınma müddətinin 3 həftə olması gözlənilir.

Prezident İlham Əliyev Şimal-Cənub nəqliyyat dəhlizinin ölkəmiz üçün xüsusi əhəmiyyət daşıdığını vurğulayaraq demişdir: "Keçən il Şimal-Cənub nəqliyyat dəhlizi ilə daşınan yüklərin həcmi 10 dəfə artıb. Bu sahədə də çox böyük işlər görülür. Biz Azərbaycanın daxilində dəmiryolunun yenidənqurulması prosesinə başlamışıq. Bu il Bakı-Yalama dəmiryolunun yenidənqurulması davam etdiriləcək. Bakı-Astara dəmiryolunun yenidənqurulması üçün bu ilin investisiya proqramında da vəsait nəzərdə tutulub. Bunlar Şimal-Cənub dəhlizi üçün çox önəmli layihələrdir. Düzdür, bu dəmiryolu var, ancaq sürət aşağıdır".

Bu marşrutla yüklərin Şimali və Qərbi Avropa-Rusiya Federasiyası, daha sonra üç istiqamətdə - Qafqaz-Fars körfəzi, Mərkəzi Asiya-Fars körfəzi, Xəzər dənizi-İran İslam Respublikası-Fars körfəzi marşrutları ilə həyata keçirilməsi nəzərdə tutulur. Bu sxemdən də aydın görünür ki, həmin marşrutda Azərbaycan önəmli rol oynayır. Xüsusilə nəhəng Rusiya, Hindistan və İran bazarı üçün malların buradan daşınması əhəmiyyətlidir. Çünki bu, daha çox yükdaşınma deməkdir.

Mütəxəssislərin ilkin hesablamalarına görə, bu dəhliz fəaliyyətə başlayandan sonra Azərbaycan ərazisindən daşınan yüklərin birinci mərhələdə 3 milyon ton, ikinci mərhələdə 5-8 milyon ton, üçüncü mərhələdə isə 15 milyon ton olması gözlənilir.

Dəhlizin Azərbaycan ərazisindən keçən dəmiryolu hissəsinin uzunluğu 511 kilometrdir. Bakı-Yalama sahəsindəki dəmiryolu ikixətlidir, elektrikləşdirilib və avtomatik rabitə, həmçinin işarəvermə sistemi ilə tam təchiz olunub. Sahənin buraxılış qabiliyyəti sutkada 60 cüt qatardır. Bakı-Astara dəmiryolu sahəsinin Osmanlı stansiyasına qədər olan 140 kilometrlik hissəsi ikixətlidir, elektrikləşdirilib, avtomatik işarəvermə sistemi ilə təchiz olunub. Sahənin buraxılış qabiliyyəti sutkada 53 cüt qatardır. Bakı-Astara dəmiryol sahəsinin Osmanlı stansiyasından Astara stansiyasına qədər olan 188 kilometrlik hissəsi biryolludur, elektrikləşdirilməyib, lakin avtomatik işarəvermə sistemi ilə təchiz olunub. Sahənin buraxılış qabiliyyəti sutkada 20 cüt qatardır.

Dəmiryolunun Yalama-Bakı sahəsində 96 kilometr, Bakı-Astara sahəsində 60 kilometr dəmiryolu xətti əsaslı təmir olunmalı, 36 kilometr sahilbərkitmə işləri görülməlidir. Bu istiqamətdə 2001-ci ildən başlayaraq müəyyən işlər görülüb və hazırda davam etdirilir. Eyni zamanda, göstərilən sahədə stansiya yollarının sağlamlaşdırılması, elektrik təchizatının yaxşılaşdırılması, lokomotiv parkının genişləndirilməsi və s. kimi texniki tədbirlər bu istiqamətdə görülən işlər siyahısına daxildir.

Azərbaycan dəmiryolunun İran dəmir yolları şəbəkəsi ilə birləşdirilməsi üçün Astara (Azərbaycan) - Astara (İran) dəmiryolu xəttinin, Astaraçay üzərindən dəmiryolu körpüsünün inşası nəzərdə tutulur. Marşrutun işlək vəziyyətə gəlməsi üçün Azərbaycan tərəfi 8,4 kilometr dəmiryolu xəttinin çəkilməsini, hər biri 1050 metr olan 4 stansiya yolunun tikintisini aparacaq.

***Rüstəm KAMAL,***
***"Azərbaycan"***

# Müəllim əməyi yüksək qiymətləndirilir

Qubadlı Rayon İcra Hakimiyyətinin təşkilatçılığı ilə Sumqayıt şəhərində yerləşən "28 May" Mədəniyyət Evində 5 oktyabr - Beynəlxalq Müəllimlər Günü münasibətilə keçirilən tədbirdə rayon icra hakimiyyətinin başçısı Malik İsaqov, rayonun idarə, müəssisə, təşkilat rəhbərləri, ictimaiyyət nümayəndələri və müəllimlər iştirak edib.

AZƏRTAC xəbər verir ki, tədbirdə çıxış edən rayon təhsil şöbəsinin müdiri Fuad Bədəlov Qubadlı təhsilinin inkişafından danışıb, rayonun orta məktəblərinin maddi-texniki bazasının ildən-ilə gücləndirildiyini və bunun məntiqi nəticəsi kimi təhsildə əldə olunan nailiyyətləri diqqətə çatdırıb. O, bütün müəllimlərə nailiyyətlər diləyərək, təhsil işçilərinə Azərbaycanın gələcəyi üçün əsl vətənpərvər vətəndaşlar yetişdirməyi arzulayıb.

Qubadlı Rayon İcra Hakimiyyətinin başçısı Malik İsaqov müəllimləri bayram günü münasibətilə təbrik edərək, bu günün bütün dünyada olduğu kimi, ölkəmizin də çoxminli müəllim ailəsi üçün əziz bayram olduğunu vurğulayıb. Malik İsaqov təhsil müəssisələrində çalışan işçilərin əməkhaqlarının və tələbələrin təqaüdlərinin artırılması haqqında Prezidentin sərəncamlarının, habelə Bakı şəhərinin və onun qəsəbələrinin sosial-iqtisadi inkişafına dair Dövlət proqramlarının icrasının və Heydər Əliyev Fondunun "Yeniləşən Azərbaycana yeni məktəb proqramı"nın və digər bu kimi tədbirlərin dövlətimizin təhsil sahəsinə göstərdiyi diqqətin bariz nümunəsi olduğunu diqqətə çatdırıb.

Qubadlı rayon məktəblərinin uğurlarından bəhs edən M.İsaqov vurğulayıb ki, rayon üzrə 32 ümumtəhsil məktəbi fəaliyyət göstərir. Onlardan 18-i yeni tikilib, 14-ü əsaslı təmir olunub. Eyni zamanda, 2018/2019-cu tədris ilində Abşeron rayonu "St. Sumqayıt" ərazisində yerləşən Qubadlı rayon Hal, Dəmirçilər kənd tam orta məktəbləri, eləcə də şəhər 4 saylı tam orta məktəb müasir tələblərə cavab verən yeni binalarda fəaliyyətə başlayıb, 2019/2020-ci tədris ilində isə Sumqayıt şəhər 12-ci mikrorayon ərazisində məcburi köçkünlər üçün tikilmiş yeni şəhərcikdə Kavdadıq və Əliquluuşağı kənd tam orta məktəbləri üçün yeni bina tikilərək şagird və müəllim kollektivinin istifadəsinə verilib.

M.İsaqov bütün bu nailiyyətləri Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın həyata keçirdiyi uğurlu təhsil siyasətinin nəticəsi kimi dəyərləndirib.

İcra hakimiyyətinin başçısı Prezident İlham Əliyevin sərəncamı ilə Qubadlı rayon Çardaxlı kənd tam orta məktəbinin direktoru Çingiz Salmanova "Əməkdar müəllim" adı verilməsi münasibətilə onu təbrik edib, fəaliyyəti dövründə fərqlənən bir qrup müəllimə fəxri fərman verib.

Dünya olduğu kimi

# İnsan cəsədlərindən “hörülən” sədd



**“Hər kərpicin sayı qədər insan udan bu divarlar dünyanın ən uzun qəbiristanlığıdır”. Bu deyim onilliklər öncə Çində xalq tərəfindən yaranıb və dillər əzbəri olub. Üstəlik boşuna da deyilməyib. Özündə tarixi həqiqəti ehtiva edən bu cümlə Böyük Çin səddi haqqındadır. Bəli, Şərqin ən möhtəşəm və qeyri-adi tarixi memarlıq abidəsinin divarları həm də milyonlarla insanın cəsədlərindən hörülüb...**

Çinlilərin “Vanli Çançen” dedikləri, Sarı dənizin Lyodun körfəzinin sahillərindən başlayıb Çinin şimal sərhədləri boyunca uzanan və Qobi səhralarından keçən Böyük Çin səddi ilk dəfə m.ə. 221-ci ildə imperator Çin Şi-Xuandi tərəfindən tikilib.

Çin imperatorluğunun əsasını qoyan və onu ən güclü dövlət kimi formalaşdıran imperator Çin Şi-Xuandi bu nəhəng divarı öz dövlətini şimalda yaşayan köçəri xalqların qəfil hücumlarından qorumaq üçün çəkdirmişdi. İmperator istəyirdi ki, onun tikdirdiyi nəhəng daş divarı heç bir qüvvə yıxa və aşa bilməsin. Həmin səddin bir tarixi əhəmiyyəti də ondan ibarət idi ki, o, dağınıq və tayfa halında yaşayan Çin xalqının milli birliyinin əsasını qoymuş və bu dağınıq xalqlar əl-ələ verərək dünyanın ən uzun və ən nəhəng daş divarını tikmişdilər.

Səddin birinci hissəsinin uzunluğu 2450 kilometr olmalı və 10 ilə tikilib qurtarmalı idi. Uca dağlardan, dərin dərələrdən, susuz səhralardan keçən bu tikinti çox çətin şəraitdə aparılırdı. Əraziyə inşaat materialları əllə daşınırdı. Və buna da yüz minlərlə insan əməyi sərf edilirdi. Görünür elə buna görə də əl arabası ilk dəfə bu divarın çəkilişi zamanı zərurət olaraq çinlilər tərəfindən icad edilib.

Səddin tikintisi ayrı-ayrı hissələrə bölünmüşdü və hər hissəni vahid plan əsasında bir tayfanın, qəbilənin əhalisi tikirdi. İmperator tikintiyə ümumi rəhbərliyi qoşun böyüyü Men-Tyana tapşırmışdı. Men-Tyan isə tikinti işlərini vaxtında başa çatdırmaq üçün 350 min əsgəri və yüz minlərlə mülki adamı işə cəlb etmişdi. Mülki adamların arasında şəhərli ustalar, əkinçi kəndlilər və on minlərlə həbsxana məhkumları vardı.

Men-Tyan əvvəlcə səddin hər 100 metrliyində ucaldılan gözətçi qüllələrinin tikintisindən başlamışdı. Bu sayaq qüllələrin sayı 25 mindən çox idi. Hər birinin hündürlüyü 12 metrə çatan qüllələr tamamlandıqdan sonra aralarında hündürlüyü 7,5 metrə, bəzi yerlərdə isə 10 metrə çatan və qalınlığı 5,5-6,5 metr olan daş divarlar tikilirdi.

Səddin bayır tərəfi yad torpaqlar adlanırdı. Buna baxmayaraq, ölkənin mühafizəsini yaxşı təşkil etmək naminə həmin yad torpaqlarda da 15 mindən çox gözətçi qülləri tikilmişdi. Qüllədəki gözətçilər gündüzlər tüstü ilə, gecələr isə tonqal qalamaqla düşmənin gəldiyini xəbər verirdilər.

Deyildiyi kimi, 2450 kilometrlik səddin tikintisi cəmi 10 ilə - m.ə. 230-cu ildə başa çatdırıldı. Bu münasibətlə imperator Men-Tyanı böyük mükafatlarla təltif etdi. Amma imperator bilmədi ki, bu nəhəng səddi tikib qurtarana qədər qarda, şaxtada, səhralarda aclıqdan, susuzluqdan, soyuqdan və ağır əməkdən ildə 400 mindən çox işçi həlak olmuşdu. Ölən adamlar isə Men-Tyanın əmri ilə qala divarlarına hörülürdü...

Sədd tikiləndən sonra onun mühafizəsi çox ciddi təşkil olunmuşdu. Bir neçə qülləni qoruyacaq 145 nəfərlik hərbi qarnizon, həm səddi, həm də iç divarlar boyu tikilmiş anbarları mühafizə edirdi. Səddin üstü çox geniş və enli idi. Divarların üstü ilə dörd piyada əsgər və ya üç atlı yan-yana gedə bilirdi. Divarların üstünə qalxmaq üçün iç tərəfdən çoxlu pilləkənlər qurulmuş və yağış-qar suyunu kənara atmaq məqsədilə daş novlar qoyulmuşdu.

Sonrakı bir neçə əsrdə Böyük Çin səddi daha 2000 kilometr uzadılaraq dünyanın ən böyük, ən uzun səddinə çevrildi. Lakin o, yeni eranın VI əsrindən başlayaraq türk imperiyalarının güclü ordularının önünü saxlaya bilmədi və öz keçilməz-aşılmaz müdafiə funksiyasını itirdi. Qədim türk hökmdarları Bilgə Xaqan, Mete, Monqol imperatoru Çingiz xan Böyük Çin səddini aşaraq ölkənin içərilərinə yeridilər.

Lakin Min sülalə imperatorluğu dövründə (XV-XVI əsrlər) Böyük Çin səddi yenidən bərpa edilərək bir daha çin xalqını vahid məqsəd - Çin dövlətini yadellilərdən qorumaq uğrunda birləşdirdi. Elə o dövrdən də Böyük Çin səddi öz müasir görkəmini qoruyub saxladı.

İstehkamın ən yaxşı saxlanılan hissəsi Pekinin təxminən 65 kilometrliyindəki Badalin kəndi yaxınlığında olan hissəsidir. Bu hissə 6 inzibati rayonun ərazisindən keçir və 520,71 km təşkil edir. Bir neçə il ərzində onun 37,5 km hissəsi restavrasiya olunub.

Sonradan alimlər Böyük Çin səddinin cənub-şərq tərəfində, Koreya Xalq Respublikası ilə qonşuluqda olan Qirin vilayətindəki hissəsini aşkar ediblər. Sonuncu tapılmış hissə divarların özündən 11 km uzaqlıqda yerləşir. Mədəni İrs üzrə Dövlət Administrasiyasının 2007-ci ildə başlayıb 2012-ci ildə yekunlaşdırdığı hesablamalara görə isə, Çin səddinin uzunluğu 21 min 196 kilometr, eni 5-8 metr, hündürlüyü orta hesabla 6-7 metrdir.

Böyük Çin səddi - ölkənin ən böyük və ən möhtəşəm sənət abidəsi üç min ildir ki, Çinin simvoluna çevrilərək yaşayır. Çinlilər üçün Böyük Çin səddi ölkənin böyüklüyünün sübutudur. Dünya üçün isə Böyük Çin səddi insan gücünün, ixtirasının və dözümlülüyünün abidəsidir. Hazırda bu nadir və qeyri-adi tikinti qədim dünya insanlarının əli ilə tikilmiş ən böyük möcüzələrdən biri olmaqla Şərq aləminin nadir tarixi-memarlıq və maddi-mədəniyyət abidələrinin də ən qiymətli incisi hesab edilir.

Çinin şərqindən qərbinədək uzanan Böyük Çin səddinin tamaşasına hər il dünyanın müxtəlif ölkələrindən milyonlarla turist gəlir. Bu abidə 1987-ci ildən etibarən UNESKO-nun Ümumdünya İrs Siyahısına daxil edilərək bu beynəlxalq qurumun nəzarəti altında qorunur.

***Xəyalə MURADLI, “Azərbaycan”***

## Bilirsinizmi...



- Napoleonun əsgərlərinin generala “sən” deyə müraciət etmək hüquqları vardı;
- Tarantul hörümçəyi qidasız 2 il yaşaya bilir;
- Ayın ilk xəritəsini 1609-cu ildə Tomas Harriton hazırlayıb. Ayda ən yüksək temperatur 117 dərəcə selsidir. Aydakı ən yüksək dağın hündürlüyü 11 500 metr təşkil edir;
- Polşa yerli dildə “düzənliklər ölkəsi” mənasını verir;
- Qarışqalar yatmırlar;
- İnsan gözü üçün çox mürəkkəb rənglər var. Həmin rəngləri “mümkün olmayan rənglər” adlandırırlar;
- Qurbağanın 2 600 növü var;
- # - işarəsi adətən çərçivə, nömrə nişanəsi və ya funt işarəsi sayılır. Əslində isə işarənin rəsmi adı oktotorpdur;
- Gi de Mopassan, Aleksandr Düma, Şarl Quna “Parisdə Eyfel qülləsinin ucaldılmasına qarşı” protest imzalayıblar;
- Həyatı boyu insanın hər barmağı 25 milyon dəfə əyilir;
- Bir ildə 21 milyon 557 min 600 saniyə var.

# NASA “kentavr” asteroidləri tədqiq edəcək

**ABŞ-ın Aeronavtika və Kosmik Tədqiqatlar Milli Agentliyi (NASA) Yupiter və Neptun planetlərinin arasında yerləşən və öz xassələrinə görə kometlərə daha yaxın olan “kentavr” asteroidləri tədqiq etmək üçün kosmosa avtomatik stansiya göndərilməsi imkanlarını nəzərdən keçirir.**

NASA-nın Kolorado ştatındakı Boulder Tədqiqat Mərkəzinin astronomu Alan Stern “kentavr” asteroidlərin maraqlı xüsusiyyətləri barədə məlumat verib. O bildirib ki, böyük ehtimalla, onlar Koyper adlanan qurşaqda - Günəş sisteminin sərhədində kiçik göy cisimlərinin toplaşdığı yerdə yaranıb. “Bu cür ekspedisiyanın təşkili Koyper qurşağında olan bütün kosmik obyektləri uzaqdan öyrənməyə imkan verəcək” deyə alim əlavə edib.



Space.com saytının yazdığına görə, tədqiq ediləcək göy cisimləri arasında 1927-ci ildə kəşf edilmiş “Şvasmann-Vahmann-1” kometi və 1997-ci ildə aşkar olunmuş, Saturnla Uran arasında yerləşən “Hiron 2060” asteroidini göstərmək olar.

“Şvasmann-Vahmann-1” kometinin maraqlı cəhəti ondan ibarətdir ki, onun nüvəsi ildə təqribən yeddi dəfə qaz tullantıları buraxır. Astronomlar hələ bu qəribə hadisənin elmi izahını verə bilmirlər. “Hiron” isə sıx qaz və toz halqası ilə əhatə olunub.

Günəş batareyaları ilə işləyəcək avtomatik stansiyanın “kentavr” asteroidləri tədqiq etmək üçün kosmosa göndəriləcəyi təqdirdə NASA iki mümkün start nəzərdə tutub: 2025-2026-cı illər və ya 2028-2029-cu illər. Belə olan halda stansiya tədricən - bir il müddətinə göy cisimlərinə yaxınlaşacaq və 2040-cı ilədək onları öyrənəcək. Alan Stern bildirib ki, əgər bu müddətdə stansiyanı kosmosa göndərmək mümkün olmasa, onda daha 50 il gözləmək lazım gələcək.

Xatırladaq ki, elmi jurnallarda “kentavr” asteroidlərin Yerə təhlükə törətdiyi barədə bir çox astronomların məqalələri dərc olunub.

# “Şeytan meyvəsi”nin “kəşfi”

**Dünyanın əksər ölkəsində qida rasionunun əsasını təşkil edən kartofun “kəşfi” tarixini bilirsinizmi?**



İlk dəfə kartofu Cənubi Amerika hindiləri 14 min il bundan əvvəl becərməyə başlayıblar. Keçua hindiləri ona “papa” deyirdilər. Xristofor Kolumb 1492-ci ildə Amerikanı kəşf etdikdən sonra isə kartof ekzotik bitki kimi Avropaya gətirildi.

Kartof İspaniyaya ilk dəfə 1565-ci ildə “ayaq açıb”. Həmin il Cənubi Amerika ərazilərinə gələrək yerli əhalini qarət edən ispanlar qızıl, gümüş və digər qiymətli şeylərlə bərabər onlara maraqlı gəldiyi üçün bir kisə kartofun kökyumrusunu da öz vətənlərinə gətirirlər. Əldə etdikləri bütün qənimətləri vətənlərinə gətirdikdə krala nümayiş etdirirlər. İlk dəfə gördükləri qəribə yumru bitki hər kəsin diqqətini cəlb edir. Kral kartofun bir hissəsini hədiyyə olaraq Roma papasına göndərir. Papa da öz növbəsində digər Avropa hökmdarlarına kartof hədiyyələri göndərir və beləcə, bu bitki İspaniya, Hollandiya, İtaliya və digər Avropa ölkələrinə yayılır.

Bir qədər sonra Fransa kralı XVI Lüdovik və xanımı Mari Antuanett kartof çiçəyini şlyapalarında, libaslarında gəzdirərək, bu qəribə tərəvəzi təbliğ edirlər. Artıq 1800-cü illərdə kiçik ərazidə il ərzində dəfələrlə əkilə bilən, bol məhsuldarlığı ilə məşhurlaşan kartof İrlandiya əhalisinin başlıca qida mənbəyinə çevrilir.

Kartof Rusiyaya İspaniyada əkildikdən bir əsr sonra I Pyotrun vaxtında gəlib çıxır. Rusiyada ilk dövrlərdə kartofa “şeytan meyvəsi” deyirdilər. Xristianlar “İncil”də bəhs edilmədiyi üçün kartof əkməyi rədd edirdilər. Hətta kəndli hərəkatları da baş verirdi; çünki kəndliləri kartof əkməyə zorlayırdılar. Hərbi hissələr “kartof qiyamları”nı yatırırdılar. Sonradan kartofdan dadlı yeməklərin hazırlanma sirlərini öyrənib ondan istifadə etməyə başladılar.

Azərbaycanda isə kartofu ilk dəfə XIX əsrin əvvəllərində Almaniyanın Vürtemburq krallığından indiki Xanlar və Şəmkir rayonlarına köçürülmüş almanlar və Rusiyadan Gəncə, Lənkəran, Şamaxı və Quba qəzalarına sürgün edilmiş malakanlar əkiblər. Yerli əhali əvvəllər yeralması adlandırdığı kartofu XX əsrin əvvəllərində daha geniş becərməyə başlayır. Ruslarda olduğu kimi, bizdə də kartofu “ikinci çörək” adlandırırlar.

Maraqlıdır ki, kartof kosmosda yetişdirilən ilk məhsuldur. Amerika Aviasiya və Kosmos Dairəsi NASA ilə Viskonsin Universitetinin birgə çalışması zamanı 1995-ci ildə kosmosda kartof yetişdirmə sınağı keçirilib və uğurla nəticələnib.

1982-ci ildə yetişdirilən 4 kiloqramlıq kartof isə “Ginnesin rekordlar kitabı”na daxil olub.



# Sağlıq olsun

# Boğazımızın qənimi - faringit

**Həkim məsləhəti**



**Havaların dəyişməsi ilə bərabər şikayət edilən xəstəliklərdən biri də boğaz ağrısıdır. Bəs boğaz ağrısının yaranmasına nə səbəb olur? Boğaz ağrısını sağaltmaq üçün nə etmək lazımdır?**

Boğaz ağrısı barədə məlumat verən qulaq-burun-boğaz və baş-boyun cərrahı Cavid Cabbarzadə bildirir ki, udlağın iltihabı olan faringitə insanların əksəriyyətində rast gəlinir və müddətinə görə iki növü var. Əgər yeni yaranmış və şiddətli şikayətlər verirsə kəskin, uzun müddət davam edirsə və xəstədə çox güclü şikayətlər vermirsə xroniki faringit adlanır.

Kəskin faringit əsasən üst tənəffüs yolu infeksiyasından sonra müşahidə olunur və səbəbi daha çox viruslardır. Xroniki faringitin yaranmasında isə əsasən qıcıqlandırıcı faktorlar rol oynayır. Siqaret istifadəsi, alkoqol qəbulu, allergiya, postnazal axıntı, quru və kirli hava mühiti, burun tıxanıqlığına səbəb olan faktorlar, reflüks, çox isti və soyuq qidalar, boğaztəmizləmə refleksinin tez-tez təkrarlanması, diş və badamcıq iltihabı bu faktorlardandır.

## Əlamətləri

Həkim bildirir ki, kəskin faringitdə xəstənin şikayətləri qabarıqdır. Boğazda ağrı, udqunma çətinliyi, boğazda quruluq, yanma, qaşınma hissi, temperatur, öskürək kimi şikayətlər olur. Boyunda limfa düyünlərinin böyüməsi, burun tıxanıqlığı, burun axıntısı, başağrısı, halsızlıq kimi şikayətlər də müşahidə oluna bilər. Xroniki faringitdə temperatur, halsızlıq, süstlük kimi şikayətlərə rast gəlinmir. Boğazla bağlı şikayətlər yüngüldür, ancaq uzun müddət davam edir. Boğazda quruluq, yanma, qıcıqlanma, yad cisim qalma hissi, udqunma pozğunluğu kimi şikayətlər ola bilər. Qıcıqlandırıcı öskürək olur. Həm kəskin, həm də xroniki faringitin diaqnozu xəstənin anamnezinə və müayinəyə əsasən qoyulur.

## Müalicəsi

Kəskin faringitin virus mənşəli olduğu müəyyənləşərsə antibiotik verilmir, ancaq prosesə bakteriyaların da qoşulduğu aydınlaşanda antibiotiklərdən istifadə olunur. Əlavə olaraq ağrıkəsicilər, allergiyası olan xəstələrdə antihistaminlər, burunaçıcı spreylər, öskürək əleyhinə preparatlar və boğaz üçün qarqaralar istifadə oluna bilər.

Xroniki faringitin müalicəsi daha mürəkkəbdir. Müalicə ilə yanaşı, xəstənin müəyyən pəhrizə də diqqət etməsi vacibdir. Ancaq yenə də xroniki faringit nadir hallarda tam olaraq sağalır. Öncəliklə onu yaradan səbəb aşkar olunmalı və müvafiq müalicə aparılmalıdır. Antibiotiklər əksər hallarda faydasızdır. Postnazal axıntını azaldan sprey və qarqaralar istifadə edilir. Reflüks əleyhinə dərmanlar təyin edilir.

## Nələrə diqqət edilməlidir?

Siqaret və alkoqol istifadəsini azaltmaq və ya kəsmək;
Tozlu mühitlərdə qalmamağa çalışmaq;
Çox soyuq və isti qidalar qəbul etməmək;
Allergiyaya səbəb olan faktorlardan uzaq düşmək;
Tez-tez və şiddətli boğaztəmizləmələri azaltmaq;
Bol miqdarda C vitamini ilə zəngin qidalar qəbul etmək.

***Yasəmən MUSAYEVA, “Azərbaycan”***

## Bilirik?

- Oyandıqdan 5 dəqiqə sonra yuxunun yarısını, 10 dəqiqə sonra isə 90 faizini unuduruq;
- Hər gecə 4-7 yuxu görürük;
- İfrat psixoloji gərginlik keçirənlərdən başqa hamı yuxu görür;
- Elə insanlar var ki, yuxu görmədiklərini düşünürlər. Lakin bu, heç də belə deyil. Buna səbəb onların yuxularını yadda saxlaya bilməmələridir;
- Korlar da yuxu görürlər;
- Hamı rəngli yuxu görə bilməz. Gözləri görən insanların 12 faizi yuxularını ağ-qara rəngdə görürlər;
- İnsanlar 1915-1950-ci illərdə daha çox ağ-qara yuxular gördükləri halda, 50-ci illərdən sonra bu “tendensiya” dəyişməyə başladı. Mütəxəssislər bunun səbəbini rəngli televizorların istehsalı ilə əlaqələndirirlər;
- Yuxular arasındakı fasilə orta hesabla 1-2 saatdır;
- Xoruldayarkən yuxu görmək mümkün deyil;
- Araşdırmalara görə, yuxuların 18-38 faizi gələcəklə bağlı arzular, planlarla əlaqədar olur.

**Xalq təbabəti**

# Boğaz ağrısından qurtulmağın yolları

**1. Bal, limon və zəncəfilin gücündən faydalanın**

Evinizdəki ədviyyatlarla hazırlaya biləcəyiniz sadə bir qarışımla boğaz ağrısından xilas ola bilərsiniz. Bir neçə qaşıq bal, yarım limonun suyu ilə bir çay qaşığı toz zəncəfili qarışdırın və üzərinə az miqdarda ılıq su əlavə edin. Əldə etdiyiniz qarışımı içmək boğaz ağrısı üçün təsirli vasitə olacaq.

**2. Nanəcövhərli buxar vannası edin**

Burun tutulması və gecələr ağzı açıq yatmaq ağzın qurumasına səbəb olur. Bu isə ağıza çoxlu sayda mikrobun daxil olmasına imkan yaradır. Yatmazdan əvvəl nanəcövhərli buxar vannası burun tıxanıqlığının aradan qalxmasına səbəb olar.

**3. Cökə və adaçayı için**

Boğazdakı qıcığı aradan qaldırma xüsusiyyəti ilə tanınan cökə və adaçayı içmək boğaz ağrısı zamanı çox təsirli olur. Bu bitkilər immunitet sistemini gücləndirərək bədəninizin infeksiyalara qarşı müqavimətini də artırar.

**4. Bol su için**

Bol su içmək boğaz, dolayısı ilə hava yollarının nəmli qalmasını təmin edir. Bu da ağız qurumasının qarşısını alır, boğazdakı qıcıqlanmanı azaldır. Gündə ən azı 1,5-2 litr su içməyə cəhd edin. Suyu ılıq olaraq, yəni otaq temperaturunda için.



**5. Qidaları ılıq formada yeyin**

Həddən artıq isti və ya soyuq qidalar boğazınızdakı qıcıqlanmanı artıra bilər. Buna görə də mütləq qida və içkilərinizi ılıq formada qəbul edin. Boğazınızın həddən artıq ağrılı, şiş və iltihablı olduğu vaxtlarda sıyıqlar və ya püre formasında yeməklər yeyin. Bu cür yeməklər udmağınız üçün daha asan olacaq.

**6. Siqaret və siqaret tüstüsündən uzaq olun**

Siqaret çəkmək nəfəs yollarını həm qıcıqlandırır, həm də xarici təsirlərə qarşı müdafiəni azaldır. Siqaret çəkmək hər hansı infeksiya olmasa belə, boğazda ağrı, qıcıqlanma və öskürəyə səbəb ola bilər. Siqaretdən əlavə, başda qəlyan olmaqla tüstülü vasitələrdən istifadə və hətta bu vasitələrin tüstüsü olduğu yerdə durmaq boğazınızı qıcıqlandıra, boğaz ağrısının sağalmasını gecikdirə bilər. Buna görə də siqaret çəkməyin və siqaret tüstüsündən uzaq durmağa çalışın.

**7. Qızdırıcı üzərinə içi su dolu qablar qoyun**

Soyuq aylarda evlərin isinməsi səbəbindən mühitdəki nəmlik azalır və udulan quru hava boğazdakı qıcıqlanmaya səbəb olur. Bunun qarşısını almaq üçün evinizdə mağazadan aldığınız buxar avadanlıqlarından istifadə edə bilərsiniz. Bundan başqa, daha bir çıxış yolu var: evinizdəki qızdırıcının üzərində içi su ilə dolu qab və ya qablar qoyun. Bu yollardan istifadə etməklə siz mühitin nəmli havasını təmin edə bilərsiniz.

**Şəfalı bitkilər**

# Taclı meyvə

## Soyuqdəymə, qızdırma, boğaz ağrısının dərmanı

**Meyvələrin tacı sayılan nar yeganə bitki növlərindən biridir ki, yarpağının, çiçəyinin, qabığının, dənəsinin, şirəsinin, şərbətinin sağlamlıq üçün inanılmaz dərəcədə faydası var.**

Tərkibi vitaminlərlə, mikroelementlərlə, orqanizm üçün zəruri olan digər maddələrlə zəngin olan nar hələ qədim zamanlardan xalq təbabətində geniş istifadə olunub. Belə ki, müxtəlif xəstəliklərdən əziyyət çəkən insanlar bu möcüzəvi bitkidən şəfa tapıblar. Nar ürək-damar xəstəliklərinə qarşı ən yaxşı vasitələrdən biridir. 1 stəkan nar şirəsi ürəyi qüvvətləndirir. O, həm də qan təzyiqini aşağı salır.

Orqanizmin zərərli maddələrdən təmizlənməsinin ən asan yolu nardan istifadə etməkdir. Qanın təmizlənməsi üçün ildə iki dəfə nar şirəsindən istifadə etmək yetərlidir. Kurs 3 həftə davam etdirilməlidir. Birinci həftə gün ərzində 3 dəfə yarım stəkan, ikinci həftə 2 dəfə, üçüncü həftə gündə bir dəfə yarım stəkan təzə çəkilmiş nar şirəsi içilərsə, qan zərərli maddələrdən təmizlənmiş olar. Dərinin gümrah və sağlam görünməsini təmin edən nar həm də dəri infeksiyalarına qarşı mübarizə aparır.



Bu möcüzəvi meyvənin ən başlıca faydalarından biri odur ki, o, bütün orqanların fəaliyyətinə müsbət təsir edir, immun sistemini gücləndirir.

Soyuqdəymə və qızdırma zamanı bir stəkan nar şirəsinə bir çay qaşığı bal əlavə edib içmək xeyirlidir. Nar görmə qabiliyyəti üçün də olduqca xeyirlidir. Əgər görmə qabiliyyətinizdə zəifləmə (toyuq korluğu) hiss edirsinizsə, qida rasionunuza hökmən nar şirəsi əlavə edin. Nardan müntəzəm olaraq istifadə xərçəng xəstəliyinə tutulmaq riskini azaldır. Stresdən, gərginlikdən yaxa qurtarmaq üçün çay dəmləyərkən ona bir neçə nar qabığı da əlavə edin. Bu, çayınızı ətirli etməklə yanaşı, gün ərzində qıcıqlanmalardan sizi xilas edəcək.

Nardan ağız boşluğunda yaranan iltihabi xəstəliklər, boğaz ağrısı zamanı da faydalanmaq olar. Bunun üçün nar şirəsini ılıq su ilə qarışdırıb qarqara etmək öz müsbət təsirini göstərər.

Mədə və onikibarmaq bağırsağın xorası, qastrit, pankreatit, qəbizlik zamanı nardan istifadə etmək məsləhət görülmür.

**Sağlam qida**

# Fəsil xəstəliklərinə qarşı immunitetinizi belə gücləndirin

Fəsil dəyişməsi, havaların soyuması soyuqdəyməyə, boğaz ağrısına, zökəmin geniş yayılmasına səbəb olur. Bəs xəstələnməmək, viruslara yoluxmamaq üçün immun sistemini necə gücləndirmək olar?

Bunun üçün ilk növbədə menyunuzda A, C vitaminləri və sinklə zəngin qidalar üstünlük təşkil etməlidir. Mövsümə uyğun qidalanma immun sistemini gücləndirən amildir. Bu halda tünd yaşıl yarpaqlı göyərtilər, parlaq narıncı rəngli meyvələr, yağlı balıqlar immun sistemini gücləndirərək yuxarı tənəffüs yolları infeksiyalarına qarşı dözümlülük yaradır.

Qaraciyər, yumurta, süd, kərə yağı, ispanaq, çuğundur yarpağı, kök, boranı A vitamini ehtiyacını ödəyir.

Yetkin yaşında olan bir şəxsin gün ərzində təqribən 90 milliqram C vitamini qəbul etməsi lazımdır. Səhər yeməyində 3 ədəd yaşıl bibər, gün ərzində 2 narıngi yeməklə gündəlik C vitamini ehtiyacını ödəmək mümkündür.

Çox stress keçirənlərin, alkoqol, siqaret istifadəçiləri, yüksək temperaturla müşayiət olunan virus xəstəliklərinə yoluxanların, antibiotik və ağrıkəsici istifadə edənlərin gündəlik C vitamini ehtiyacı daha yüksək olur.

Bunun üçün qırmızı ət də daxil olmaqla, sink qaynağı sayılan heyvan mənşəli qidalar qəbul etmək vacibdir. Balqabaq tumu, tünd yaşıl rəngli göyərtilər də bu baxımdan çox faydalıdır.

# Şahmat üzrə Dünya Kubokunun ilk azərbaycanlı sahibi

Azərbaycanlı beynəlxalq qrossmeyster Teymur Rəcəbov Rusiya Federasiyasının Xantı-Mansiysk şəhərində başa çatmış şahmat üzrə Dünya Kuboku yarışının qalibi olmuşdur.



Dünya reytinqinin ilk üçlüyündə yer almış çinli qrossmeyster Dinq Lirenlə final qarşılaşmasında kubokun sahibini müəyyənləşdirmək üçün on görüş keçirilmişdir. Klassik partiyalarda və rapiddə heç-heçə qeydə alınmış, blitsdə isə Teymur Rəcəbov həm ağ, həm də qara fiqurlarla qarşılaşmalarda üstün olmuş və görüşü 6:4 hesablı qələbə ilə başa çatdırmışdır.

Xatırladaq ki, altmışdörddəbir final mərhələsindən start götürmüş turnirdə Teymur Rəcəbovla bərabər daha dörd qrossmeysterimiz - Şəhriyar Məmmədyarov, Eltac Səfərli, Nicat Abbasov və Arkadi Naydiç iştirak etmişdir. Lakin onlar mübarizəni erkən dayandırmışdılar.

Dünya Kubokuna aparan yolda Teymurun birinci mərhələdə rəqibi Farer adalarının təmsilçisi Helqi Ziska idi. Rəqibini asanlıqla məğlub edən qrossmeysterimiz sonrakı raundlarda rusiyalı şahmatçılar Sənan Syugirov və Daniil Yuffa, digər təmsilçimiz Şəhriyar Məmmədyarov, amerikalı Ceffri Xionq və Fransa təmsilçisi Maksim Vaşye-Laqravdan üstün olmuşdur.

Həlledici görüşdən sonra şahmatçımızın yüksək ustalığını onun rəqibi Dinq Liren də qiymətləndirmişdir: "Əvvəlcə yaxşı oynamağa başladım. Xüsusilə birinci partiyada. Lakin sonradan təşəbbüsü əldən verdim. Teymur finalda parlaq mövqe oyunu nümayiş etdirməklə qələbə qazandı".

Teymur finala vəsiqə qazanmaqla yanaşı, iddiaçılar turnirinə qatılmaq hüququnu da əldə etmişdir. Mötəbər yarışda qalib gələn şahmatçımız bu uğuru ilə həm də ilk azərbaycanlı kimi ölkə idmanının da tarixinə düşmüşdür.

Bu parlaq qələbə, təbii ki, ölkə rəhbərliyinin diqqətindən kənarda qalmamışdır. Azərbaycan Prezidenti İlham Əliyevin qrossmeysterimizə təbrik məktubunda deyilir: "Əziz Teymur, Rusiyanın Xantı-Mansiysk şəhərində Dünya Kuboku uğrunda yarışlarda qələbə qazanmağın münasibətilə səni ürəkdən təbrik edirəm. Sən yüksək ustalıq, əzmkarlıq və iradə nümayiş etdirərək qazandığın bu qələbə ilə Dünya Kubokunun sahibi olan ilk şahmatçımız kimi Azərbaycan idmanının tarixində şanlı səhifə açdın. Sənə ən xoş arzularımı yetirir, yeni-yeni qələbələr diləyirəm".

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva ölkəmizin şahmat tarixində ilk dəfə Dünya Kubokuna sahib olan Teymur Rəcəbovu "İnstaqram" səhifəsində təbrik edib: "Azərbaycan növbəti böyük uğura imza atıb! Gənc istedadımız Teymur Rəcəbov şahmat üzrə Dünya Kubokunda ölkəmizi layiqincə təmsil edərək parlaq qələbə qazanıb. Bütün Azərbaycan xalqının sevincinə səbəb olan bu möhtəşəm qələbə münasibətilə Teymuru səmimi-qəlbdən təbrik edirəm!"

Xatırladaq ki, 2001-ci ildə 14 yaşında ən gənc şahmatçı kimi dünya rekordunu yeniləyərək beynəlxalq dərəcəli qrossmeyster adına layiq görülmüş Teymur Rəcəbov üç il sonra dünya çempionatının yarımfinalçısı olmuşdur. O, Azərbaycan komandasının tərkibində üçqat Avropa çempionudur.

Teymur 2003-cü ildə İspaniyanın Linares şəhərində keçirilmiş mötəbər turnirdə 13-cü dünya çempionu Harri Kasparovu məğlub etmişdir. Bu görüş ən yaxşı oyun mükafatına layiq görülmüşdür. Həmin il Teymur həm də digər dünya çempionlarından - hindistanlı Vişvanatan Anand və ukraynalı Ruslan Ponomaryovdan güclü olmuşdur. Qrossmeysterimiz 2004-cü ildə FIDE dünya çempionatında yarımfinal mərhələsində iştirak etmişdir. O, həmin il Liviyanın paytaxtı Trablisdə keçirilmiş dünya çempionatında bürünc medala yiyələnmişdir. Teymur 2005-ci ildə Dos-Hermanas turnirinin qalibi olmuş və Avropa çempionatının gümüş medalına layiq görülmüşdür. 2006-cı ildə Linaresdə daha bir dünya çempionunu - Veselin Topalovu məğlub etmiş, növbəti il 14-cü kateqoriyalı Korus turnirinin qalibi olmuşdur.

İndi Teymur Rəcəbovu səkkiz qrossmeysterin iştirakı ilə mötəbər iddiaçılar yarışı gözləyir. Gələn il start götürəcək həmin turnirin qalibi hazırkı dünya çempionu norveçli Maqnus Karlsenlə görüşə vəsiqə qazanacaq.

***Rizvan CƏFƏROV,***
***"Azərbaycan"***

# Gənclər hərbi xidmətə yüksək əhvali-ruhiyyə ilə gedirlər





Ermənistanla 168 kilometr həmsərhəd olan Qazax rayonunda gənclərin hərbi vətənpərvərlik tərbiyəsi istiqamətində çoxsaylı tədbirlər həyata keçirilir. Məhz bunun nəticəsidir ki, onlar vətənin keşiyini çəkmək üçün həqiqi hərbi xidmətə böyük həvəslə gedirlər. Bu münasibətlə keçirilən mərasimlər bir növ gənclər və onların valideynləri üçün əsl bayram olur.

Növbəti yolasalma mərasimində də belə xoş əhvali-ruhiyyə yaşanmışdır. Qazax Gənclərin İnkişaf və Karyera Mərkəzinin təşkilatçılığı ilə Gənclər Mərkəzinin qarşısında keçirilən tədbirdə iştirakçılar və çağırışçılar əvvəlcə şəhərin mərkəzində şəhidlərin şərəfinə ucaldılmış memorialı ziyarət etmişlər. Burada Azərbaycanın ərazi bütövlüyü uğrunda canlarından keçən şəhidlərin ruhlarına dualar oxunmuş, memorial önünə tər qərənfillər düzülmüşdür. Sonra Gənclər Mərkəzinin qarşısında davam edən mərasimdə Dövlət himni səsləndirilmişdir. Qazax Gənclər İnkişaf və Karyera Mərkəzinin direktoru İsmayıl Süleymanov çıxış edərək hərbi xidmətə yola düşən gənclərə şərəfli missiyanı yerinə yetirməkdə uğurlar arzulamışdır. Qeyd edilmişdir ki, bu mərkəz fəaliyyətə başladığı ilk gündən gənclərin vətənpərvərlik ruhunda tərbiyəsinə xüsusi önəm verir.

Qazax Rayon İcra Hakimiyyətinin başçısı Rəcəb Babaşov hərbi xidmətə yola düşənlərə, onların valideynlərinə xoş arzularını bildirmişdir. Qeyd etmişdir ki, bu gün Azərbaycan Ordusu dünyanın ən güclü ordularındandır. Belə bir orduda xidmət etmək hər bir Azərbaycan gənci üçün şərəfdir. Əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulan və Prezident İlham Əliyev tərəfindən daha da təkmilləşdirilən Azərbaycan Ordusu 2016-cı ilin aprelində nəyə qadir olduğunu sübut etdi. O vaxt düşmənə verilən dərs deməyə əsas verdi ki, ordumuz Silahlı Qüvvələrin Ali Baş Komandanının bir əmri ilə işğalda olan torpaqlarımızı azad etməyə qadirdir.

Tədbirdə o da vurğulandı ki, çağırışçılar arasında düşmənin işğal etdiyi Qazaxın Aşağı Əskipara və Bağanis Ayrım kəndlərindən də gənclər var. Onlar da digər gənclər kimi öz ata-baba yurdlarının düşmən tapdağından azad olunması üçün hərbin sirlərini dərindən mənimsəməli, müasir texnikanın sirlərini mükəmməl öyrənməlidirlər.

Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Qazax rayon şöbəsinin rəisi Mehman Rəhimov hərbi xidmətin hər bir gənc üçün müqəddəs borc olduğunu diqqətə çatdıraraq demişdir ki, hərbi xidmətə yola düşən gənclər komandirlərin hər bir əmrini sözsüz yerinə yetirməli, Aprel döyüşlərində qəhrəmanlıq göstərən mərd oğulların davamçıları olmalıdırlar.

Çıxışlar başa çatdıqdan sonra meydan musiqi kollektivlərinə verilmişdir. Sonda çağırışçılar Azərbaycan bayrağını öpərək hərbi hissələrə yola düşmüşlər.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***


*Təkrar*

## Azərbaycan Respublikasının Energetika Nazirliyi
## *açıq tenderə dəvət edir*

Tender 1 LOT üzrə keçirilir:

**"Bakı İstilik Elektrik Mərkəzindən qidalanan magistral istilik xətlərinin istismarının dayandırılması ilə əlaqədar mövcud istilik paylayıcı məntəqənin və yüksəldici nasos stansiyasının yenidən qurulmaqla müasir tipli məhəlli qazanxanaya çevrilməsi məqsədilə layihə-smeta sənədlərinin hazırlanması"na dair iş və xidmətlərin satın alınması.**

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlarına malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Heydər Əliyev prospekti, 152 ünvanında yerləşən "Çinar Plaza" İş Mərkəzinin 12-ci mərtəbəsində yerləşən ofisindən əldə edə bilərlər. Əlaqələndirici şəxs: 598-16-53 (daxili 1132).

**İştirak haqqı: 350 manat. İştirak haqqı heç bir halda geri qaytarılmır.**
**Bank rekvizitləri: Dövlət Xəzinədarlıq Agentliyi**
**Kod: 210005**
**VÖEN:1401555071**
**M/h: AZ41NABZ01360100000000003944**
**SWIFT: CTREAZ22**
**Alan: Energetika Nazirliyi**
**VÖEN:1300087531**
**Hesab №: AZ44CTRE00000000000002218301**
**Təyinatı mütləq yazılmalıdır!**
**Təyinatı: Tenderdə iştirak haqqı**
**Energetika Nazirliyi**
**XHK 2218301**
**Büdcə səviyyəsinin kodu: 7**
**İqtisadi təsnifat: 142340**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı **30** bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin **1 faizi** həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı **60** bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq orqanlardan arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *iddiaçının (o cümlədən hüquqi şəxslərin birliyinə daxil olan iddiaçılar) hüquqlarını, ixtisaslarını və ixtisas göstəricilərini təsdiq edən sənədlər.*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununa uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri **(tender təklifi və bank təminatı, istisna olmaqla) 16 oktyabr 2019-cu il il saat 12:00-a** qədər, tender təklifi, bank təminatını isə möhürlənmiş ikiqat zərfdə **25 oktyabr 2019-cu il saat 12:00-a** qədər Heydər Əliyev prospekti, 152 ünvanında yerləşən "Çinar Plaza" İş Mərkəzinə məxsus binanın 13-cü mərtəbəsində yerləşən ofisinə (ümumi şöbəyə) təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri **28 oktyabr 2019-cu il saat 16:00-da** Bakı şəhəri, Heydər Əliyev prospekti, 152 ünvanında yerləşən "Çinar Plaza" İş Mərkəzinin 12-ci mərtəbəsində yerləşən ofisində açılacaqdır.

**Qeyd:** Açıq tender yalnız mikro, kiçik və orta sahibkarlıq subyektlərinin iştirakı ilə keçirilir.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***


# Beynəlxalq aləm

## ABŞ Sakit okeanda gəmi əleyhinə raketi sınaqdan keçirdi



Quam adasının yaxınlığında amerikalı hərbi dənizçilərin təlimləri keçirilmişdir. Onların sınaqdan çıxardığı gəmi əleyhinə "Naval Strike Missile" (NSM) qanadlı raket hədəfi vurmuşdur.

CNN telekanalının xəbərinə görə, manevr etməyə qadir olan raketin uçuş məsafəsi 100 dəniz mili (185,2 kilometr) təşkil edir.

Cari ayın ilk günündə keçirilmiş təlimlər Çin Xalq Respublikasının yaranmasının 70 illiyi münasibətilə Pekində təşkil olunmuş paradla üst-üstə düşmüşdür. Paradda çinli hərbçilər 21 metr uzunluğunda raket nümayiş etdirmişlər.

## İraqda hökumət əleyhinə nümayişlərdə 65 nəfər həlak oldu



İraqda son üç gün ərzində baş vermiş iğtişaşlar nəticəsində ölənlərin sayı 65 nəfərə çatmışdır. Bu barədə Səhiyyə Nazirliyinin məlumatına istinadən "Sky News Arabia" telekanalı xəbər verir.

Bağdad küçələrinə çıxmış narazı iraqlılar hökumətin istefasını, iş yerlərinin yaradılmasını, səhiyyə və korrupsiya ilə mübarizə sahəsində problemlərin həllini tələb edirlər. Etiraz aksiyaları bir neçə əyaləti də bürümüşdür.

İraq hökuməti ölkənin mərkəzində və cənubunda internetə girişi məhdudlaşdırmışdır. Bundan əlavə, komendant saatı tətbiq olunmuş, İranla sərhəddə nəzarət-keçid məntəqələri bağlanmışdır.

Müdafiə naziri bütün hərbi hissələri yüksək hazırlıq vəziyyətinə gətirmişdir. Təhlükəsizlik qüvvələri nümayişçilərə qarşı gözyaşardıcı qazdan və təzyiqli qaynar sudan istifadə etmişdir.

## İranda rusiyalı qadın jurnalist saxlanıldı

İranın Rusiya Federasiyasındakı səfiri Mehdi Sənai Rusiya Xarici İşlər nazirinin müavini İqor Morqulovla görüşdə bildirmişdir ki, Tehranda saxlanılmış rusiyalı jurnalist Yuliya Yuzik İran hüquq mühafizə orqanlarına ifadə vermiş və tezliklə azadlığa buraxılacaq. Bu barədə Rusiya Xarici İşlər Nazirliyi məlumat vermişdir.

Bu arada Beynəlxalq və Avropa jurnalistlər federasiyaları İran hökumətini Tehranda saxlanmış rusiyalı jurnalisti dərhal azadlığa buraxmağı tələb etmişdir.

Rusiyanın İrandakı səfirliyi bildirmişdir ki, Yuzik oktyabrın 2-də Tehrandakı hoteldə saxlanmışdır. Jurnalistin yaxınlarının dediyinə görə, ondan İsrailin xüsusi xidmət orqanları ilə əməkdaşlıq etməkdə şübhələnirlər.

## Parisdə prefekturaya hücum



Fransanın paytaxtı Parisdəki prefekturanın binasında 45 yaşlı inzibati əməkdaş böyük keramik bıçaqla silahlanaraq həmkarlarına hücum etmişdir. O, tərksilah olmaqdan imtina etdikdən sonra güllələnmişdir. Bu barədə "Le Monde" qəzeti xəbər verir.

Hadisə nəticəsində bir qadın və üç kişi həlak olmuş, prefekturanın daha bir əməkdaşı ağır xəsarətlərlə hərbi hospitala yerləşdirilmişdir. Məlumata görə, cinayətkar 1,5 il əvvəl islamın sələfi təriqətinə qoşulmuşdur.

## Vaşinqton Polşa vətəndaşları üçün vizaları ləğv edir

Polşa vətəndaşları ABŞ-a vizasız səfər etmək imkanı əldə edəcəklər. Bu vədi ABŞ Prezidenti Donald Tramp vermişdir. O, Ağ evdə jurnalistlərə bildirmişdir ki, söhbət vizaların tamamilə ləğv olunmasından gedir. Dövlət Departamenti bu qərarı iki ölkə arasında iqtisadi və mədəni əlaqələrin daha da möhkəmləndirilməsi yolunda vacib addım kimi qiymətləndirmişdir.

Xatırladaq ki, ötən ayın 23-də ABŞ və Polşa müdafiə əməkdaşlığının gücləndirilməsi barədə birgə bəyannamə imzalamışdır. Bu, Polşa Prezidenti Ancey Dudanın Vaşinqtona səfəri zamanı baş vermişdir.

ABŞ Polşa ərazisində kəşfiyyatçı pilotsuz təyyarələr eskadrilyası yerləşdirəcək və hərbi qulluqçularının sayını min nəfər artıracaq. Donald Trampın dediyinə görə, bunun əvəzində Polşa vətəndaşları Amerikaya vizasız səfər edə biləcəklər.

# Ermənistanda əhali 17 faiz azalıb

*Əvvəli 1-ci səh.*

1991-2019-cu illər arasında bu ölkədəki azalma təqribən 17 faiz təşkil edib. Şöbə müdiri ölkə ərazisində ən çox azalmanın əsasən əyalətlərdə, məsələn, Lori (42 faiz), Şirak (30) və Vayot (20 faiz) əyalətlərində baş verdiyini bildirib. Maraqlıdır ki, 1991-2011-ci illərdə Ermənistanda təxmini doğuş artımının 400 min müşahidə edildiyini bildirən Kyumcyan bu nəticənin ölkədən gedən 950 min insanın mühacirətini bir qədər yumşaltdığı ilə təsəlli tapdıqlarını bildirir. Lakin o, eyni zamanda 2012-2018-ci illərdəki 92 min təbii artıma qarşı 150 min nəfərdən artıq erməni vətəndaşının ölkəni birdəfəlik tərk etdiyini də etiraf edib.

Vurğulayaq ki, bu gün Ermənistanda kişi qıtlığı səbəbindən başsız qalan erməni qadınları daha çox süni mayalanmaya üstünlük verirlər. Belə ki, 2017-ci ildə Yerevanda fəaliyyətə başlayan "Fertility center" mərkəzinin direktoru, ginekoloq-reproduktoloq Eduard Ambarsumyan son illər ərzində bu mərkəzə müraciət edən erməni qadınlarının çoxaldığını etiraf edib.

Yerli mətbuat yazır ki, hələ 12 il bundan əvvəl hökumət miqrasiyanın azaldılmasını nəzərdə tutan strateji proqram işləyib hazırlayıb. Ancaq indiki mənzərəyə əsasən görürük ki, bu proqram heç bir nəticə verməyib. İnsanlar ağır vəziyyətdən bezib ölkəni tərk edirlər. Digər tərəfdən, qanunun selektiv tətbiqi səbəbindən də onlar ölkədən çıxıb gedirlər. Yəni Ermənistan vətəndaşları çoxdan bilirlər ki, qanunlar yazılırsa, bu, hələ onların adi vətəndaşlara şamil ediləcəyi demək deyil. Oliqarxlar, o cümlədən məmur və deputatlar, siyasi hamiləri olanlar inhisarçıya çevriliblər. Onların iqtisadi bazarda başqalarına da yer verməklə bağlı nə iradəsi, nə istəyi, nə də planı var. Bu da ölkəni tərk edənlərin sayını daha da artırır.

Bundan başqa, ekspertlər ona da diqqət yönəldir ki, görülən kosmetik tədbirlərə baxmayaraq, Ermənistanda əhalinin 50 faizi yoxsulluqdan da aşağı səviyyədə yaşayır. İndi Ermənistan əhalisi bu durumun dəyişəcəyinə ümid bəsləmir, ona görə də yeganə çıxış yolunu ölkədən köçməkdə görür. Əhalinin bir hissəsi köçsə də, yerdə qalanlar üçün iş yeri tapılmır. Bu isə sosial gərginliyi daha da artırır.

Digər tərəfdən, erməni demoqrafların fikrincə, müstəqillik illərində Ermənistan qocalan millət ölkəsinə çevrilib, çünki yaşı 63-dən çox olan ölkə sakinlərinin sayı əhalinin ümumi sayının 12,6 faizi qədərdir. Demoqrafların hesablamalarına görə, yaxın tezlikdə Ermənistanda yaşı 65-ə çatmış sakinlərin sayı əhalinin ümumi sayının 25-27 faizi qədər olacaq. Bu, dövlət üçün sosial təminat baxımından ciddi siqnal olacaq. İndilikdə isə əmək qabiliyyətli insanlar ölkəni sürətlə tərk edirlər.

Təbii ki, belə vəziyyət daha çox sayda insanların Ermənistanı tərk etməsinə rəvac verir. Ümumiyyətlə, qarşıdakı dövr ərzində ölkəni böyük demoqrafik problemlər gözləyir.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***

# Bakı Şəhər Baş Polis İdarəsi piket iştirakçılarına xəbərdarlıq edib

Oktyabrın 8-də razılaşdırılan piketin yüksək təhlükəsizlik şəraitində keçirilməsi üçün təşəbbüs qrupunun üzvləri - İbrahim İbrahimli, Eldəniz Quliyev oktyabrın 5-də Bakı Şəhər Baş Polis İdarəsinə dəvət olunub, qanunun tələbləri nəzərlərinə çatdırılıb və xəbərdarlıq edilib.

Bakı Şəhər Baş Polis İdarəsinin mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, bildirilib ki, piketin keçiriləcəyi ərazidə hərəkətin intensivliyini, əhalinin sıxlığını nəzərə alaraq, polis tərəfindən qanunun tələblərinə uyğun razılaşdırılan xüsusatlardan kənar, qanunsuz müdaxilə və cəhdlərin, əhalinin rahatlığını, təhsil müəssisələrinin, idarə və təşkilatların normal fəaliyyətini və nəqliyyatın işini pozan qanunsuz hərəkətlərin qarşısı alınacaqdır. Say tərkibi müəyyən olunan piket iştirakçılarından kənar şəxslərin təyin edilməyən yerlərdə və ətraf ərazilərə toplanması nəzərdə tutulmayıb.

"Sərbəst toplaşmaq haqqında" qanuna əsasən ayrı-seçkiliyə, ədavət, zorakılıq və təhqiredici çağırışlarla müşayiət olunan milli, irqi, dini ədavəti təbliğ edən davranış, eləcə də müraciətdə göstərilən ifadələrdən əlavə digər şüarların səsləndirilməsinə imkan verilməyəcək.

Qeyd olunanları nəzərə alaraq, təşəbbüskarların və qanunla 50 nəfərlik piketdə iştirak etmək arzusunda olanların hüquq qaydasına əməl etmələri tövsiyə olunub.


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan

AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar
Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
Reklam şöbəsi - 539-49-20, 538-31-11,
Kompüter mərkəzi - 538-20-87,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Mühasibat - 539-59-33,
Faks - (+994 12) 5398441

Qeydiyyat nömrəsi 1
"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet
Tiraj 8965
Sifariş 3874
Qiyməti 40 qəpik